14 fevral 2024 №12 (2077) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri Qəzet 1991-ci ilin yanvarından çıxır

# Konstitusiya Məhkəməsi seçki ilə bağlı son qərarı verdi

## Prezident İlham Əliyev andiçmə mərasimindən sonra növbəti müddətə səlahiyyətlərinin icrasına başlayacaq

Fevralın 13-də Fərhad Abdullayevin sədrliyi ilə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun iclası keçirilib.

İclasda 2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinə dair Mərkəzi Seçki Komissiyasından daxil olmuş materiallar üzrə xüsusi konstitusiya icraatı qaydasında konstitusiya işinə baxılıb.

Mərkəzi Seçki Komissiyası fevralın 11-də növbədənkənar prezident seçkilərinin nəticələrinə dair protokolu təsdiqləyərək müvafiq sənədlərlə birlikdə Konstitusiya Məhkəməsinə təqdim etmişdi.

Konstitusiya Məhkəməsi hakimlərin məruzələrini, maraqlı subyektin qanuni nümayəndələrinin çıxışlarını, ekspertlərin rəylərini dinləyib, işin materiallarına baxaraq, 2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin yekunlarının təsdiq və rəsmən elan olunmasına dair qərar qəbul edib.

Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev qərarı oxuyub.

Qərarda deyilir ki, 2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının protokolunda əks olunmuş nəticələr təsdiq edilsin.

Qərara əsasən Azərbaycan Respublikasının prezidentliyinə namizəd Əliyev İlham Heydər oğlu Azərbaycan Respublikasının Prezidenti seçilmiş elan edilib.

Konstitusiya Məhkəməsinin bu qərarı elan olunduğu gündən qüvvəyə minir.

Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Fərhad Abdullayev Konstitusiya Məhkəməsi Plenumunun iclasını bağlı elan edib.

Xatırladaq ki, MSK-nın yekun protokoluna əsasən, İlham Əliyev 92,12 faiz səslə prezident seçkilərində qalib gəlib.

Qeyd edək ki, bu, İlham Əliyevin 2003-cü ildən bəri prezident seçkilərində beşinci qələbəsidir.

***

15 oktyabr 2003-cü ildə keçirilən seçkilərdə, MSK-nın rəsmi məlumatına görə, Baş nazir, Yeni Azərbaycan Partiyasının sədr müavini İlham Əliyev 76,84 faiz səs qazanaraq qalib gəlmişdi. Seçkilərdə ümumilikdə 8 namizəd iştirak etmişdi.

15 oktyabr 2008-ci ildə keçirilən növbəti prezident seçkilərində ölkə başçısı, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyev ikinci müddətə prezident seçilib. MSK-nın məlumatına görə, 7 namizədin iştirak etdiyi seçkilərdə seçicilərin 88,73 faizi İlham Əliyevə səs vermişdi.

9 oktyabr 2013-cü ildə keçirilən seçkilərdə 10 namizəd iştirak etmiş, dövlət başçısı İlham Əliyev 84,55 % səs toplayaraq üçüncü müddətə prezident seçilmişdi.

2018-ci il aprelin 11-də keçirilən növbədənkənar prezident seçkilərində İlham Əliyev lehinə 86,02 faiz səslə qalib gəlmişdi. Həmin seçkilərdə 8 namizəd iştirak etmişdi.

***



Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 13 fevral 2024-cü il tarixli qərarı ilə prezident seçkilərinə son nöqtə qoyuldu. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

Dövlət başçısı İlham Əliyev andiçmə mərasimindən sonra növbəti 7 il müddətinə səlahiyyətlərinin icrasına başlayacaq.

*Konstitusiya Məhkəməsinin qərarı səh.2-də*

## İƏT və ICESCO rəhbərlərindən İlham Əliyevə təbrik zəngləri

Fevralın 10-da İslam Əməkdaşlıq Təşkilatının (İƏT) baş katibi Hissein Brahim Taha Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Baş katib İlham Əliyevi prezident seçkilərində qələbəsi münasibətilə təbrik edib, ona ölkəmizin inkişafı naminə fəaliyyətində uğurlar arzulayıb.

Prezident İlham Əliyevin İslam həmrəyliyi işinə verdiyi töhfəni xüsusi vurğulayan İƏT rəhbəri, eyni zamanda, işğaldan azad edilmiş torpaqlarımızda geniş abadlıq və quruculuq işlərinin həyata keçirilməsi ilə bağlı dövlətimizin başçısına təbriklərini çatdırıb.

Prezident İlham Əliyev Azərbaycanın bundan sonra da təşkilatın inkişafı, üzv ölkələr arasında həmrəyliyin gücləndirilməsi işinə töhfəsini verəcəyini qeyd edib.

İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı – ICESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Malik də fevralın 9-da Prezident İlham Əliyevə zəng edib.

Baş direktor dövlətimizin başçısına prezident seçkilərində qələbə qazanması ilə bağlı təbriklərini və xoş arzularını çatdırıb, ona Azərbaycanın tərəqqisi naminə fəaliyyətində yeni uğurlar arzulayıb.

Telefon söhbəti zamanı Azərbaycanla ICESCO arasında əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminlik ifadə olunub.

## "Karnegi-holl"da Arif Məlikovun musiqisi səslənib

Nyu-York şəhərində ən mötəbər sənət məkanı sayılan "Karnegi-holl" zalının səhnəsində tanınmış azərbaycanlı pianoçu Nərgiz Əliyarovanın konserti olub.

Azərbaycanın dünyaşöhrətli bəstəkarı Arif Məlikovun 90 illiyinə həsr olunmuş musiqi axşamı anşlaqla keçib.

Nərgiz Əliyarova Arif Məlikovun "Məhəbbət əfsanəsi" baletindən fortepiano üçün pyesi ifa edib. Baletin süjet xətti və bu əsərin Arif Məlikovun yaradıcılığında mərkəzi rolunu qeyd edən pianoçu vurğulayıb ki, əsər dünyanın onlarla ölkəsində səhnəyə qoyulub və musiqi sənəti xəzinəsinə daxil edilib. Proqramda, həmçinin Bethoven, Şopen, Debüssi və Metnerin əsərləri səsləndirilib.



Tamaşaçılar musiqiçinin ifasını maraqla qarşılayıblar. Nərgiz Əliyarova alqışlar altında təkrarən Şopenin valsını ifa edib.

Nyu-Yorkda yaşayan pianoçu və musiqişünas Nərgiz Əliyarova Milli Musiqi və Qlobal Mədəniyyət Cəmiyyətinin təsisçisidir. Dünyanın 40-dan çox şəhərində solist qismində, kamera və simfonik orkestrlərlə çıxış edib. Azərbaycanın Əməkdar artisti Nərgiz Əliyarova 2010-cu ildə Polşa hökuməti tərəfindən "Şopen irsinə verdiyi görkəmli töhfəyə görə" mükafatına layiq görülüb. 25 il Bakı Musiqi Akademiyasında dərs deyib, fəlsəfə doktoru elmi dərəcəsi alıb, akademiyanın professoru olub. Bir neçə kitabın müəllifidir. Nyu-Yorkda təsisçisi olduğu Milli Musiqi və Qlobal Mədəniyyət Cəmiyyəti Azərbaycan incəsənətinin təbliğinə töhfələr verir.

## 68 ildir göstərir Bakı

Fevralın 14-də Azərbaycan Televiziyasının yayıma başlamasının 68-ci ildönümü tamam olur. "Diqqət, diqqət! Göstərir Bakı" – 1956-cı ilin bu günü Azərbaycanın ilk telekanalı – Bakı Televiziya Studiyası bu sözlərlə evlərə qonaq gəlib. Telestudiya əvvəlcə həftədə 3 dəfə, 1957-ci ildən 5 dəfə 2 saatlıq proqramla efirə çıxıb. 1962-ci ildə gündəlik efirə çıxan proqramların həcmi 7 saatadək artırılıb. 70-ci illərdə gündəlik verilişlərin yayım həcmi 10, 80-ci illərdə 18 saata çatdırılıb. 2005-ci ildən isə 24 saatlıq fasiləsiz yayıma keçilib.

1996-cı ildə istismara verilən Bakı Teleqüllə Kompleksi bu gün ölkənin əsas yayım mərkəzi hesab olunur. 310 metr hündürlüyü olan və unikal konstruksiyaya malik bu kompleks vasitəsilə yerli və bir çox xarici ölkələrin televiziya proqramları yayımlanır. Ən müasir standartlara əsaslanan rəqəmli televiziya yayımvericiləri istismara verilib. 3 peyklə dünyaya yayımlanan Azərbaycan Televiziyasının fəaliyyəti ən son texniki standartlara tam uyğunlaşdırılıb.

Azərbaycan Televiziyasının nəzdində 2009-cu ildə "İdman Azərbaycan", 2011-ci ildə isə "Mədəniyyət" kanalı ilk dəfə tamaşaçıların görüşünə gəlib. "Mədəniyyət" kanalı




Azərbaycan mədəniyyətini dünya mədəniyyətinin tərkib hissəsi kimi təbliğ edir, dünya mədəniyyətinin incilərini isə Azərbaycan tamaşaçılarına çatdırır.

## Azərbaycanın turizm imkanları Mumbayda nümayiş olunub

Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm Bürosunun təşkilatçılığı ilə Azərbaycanın turizm imkanları fevralın 8-dən 10-dək davam edən "OTM Mumbai – 2024" ("Outbound Travel Mart") sərgisində nümayiş olunub.




Hindistanın Mumbay şəhərində keçirilən sərgidə ziyarətçilərə Azərbaycanın tarixi və mədəni irsi, qastroturizm potensialı, qış turizmi və dağ-xizək mərkəzləri, şərabçılıq, sağlamlıq, ekoturizm kimi turizm istiqamətləri və məhsulları barədə məlumat verilib

Milli stenddə "Azərbaycan Hava Yolları" və "Şahdağ" Turizm Mərkəzi, eləcə də 15 turizm sənayesi nümayəndəsinin iştirakı ilə ölkə turizminin təbliği və təşviqi ilə bağlı B2B görüşlər keçirilib, əməkdaşlıq imkanları müzakirə olunub.

Sərgidə 60 ölkədən 1600-dən çox turizm şirkəti iştirak edir.

Qeyd edək ki, 2023-cü ildə Azərbaycana gələn xarici ölkə vətəndaşları sırasında Hindistandan olan ziyarətçilər 4-cü yerdədir. Ötən il Azərbaycana 117 min 302 Hindistan vətəndaşı gəlib ki, bu da 2022-ci illə müqayisədə 93 faiz, pandemiyadan öncəki 2019-cu illə müqayisədə isə 80 faiz çoxdur.

## "Neoreallıq" dünya turu Bakıdan da keçib

Məşhur pianoçu, bəstəkar və prodüser Stiv (Steve) Barakatt "Neoreallıq" dünya turu çərçivəsində fevralın 10-da Heydər Əliyev Mərkəzində konsert verib.

Musiqiçinin Bakı konserti iki hissədən ibarət olub. Proqrama Barakattın son albomundan, eləcə də əvvəlki illərin sevilən əsərləri daxil edilib.

1973-cü ildə Kanadanın Kvebek şəhərində livanlı ailədə dünyaya göz açan Stiv Barakatt həm klassik musiqi, həm də caz ifa edir.

O həmçinin BMT-nin Uşaq Fondu – UNICEF-in xoşməramlı səfiridir. Musiqiçi UNICEF-in himni olan "Laylay"ın müəllifidir. Diqqətçəkən məqamlardan biri də odur ki, bu himn kosmosda da



səsləndirilib və himn üçün uşaq hüquqları ilə bağlı videoçarx da hazırlanıb. Musiqiçi Bakı konsertində həmin mahnını da ifa edib.

Onun bir çox əsərləri dünyanın 150-dən çox teleşousunda, o cümlədən Monako avtomobil Qran-prisində səsləndirilib.

## Azərbaycan qızıyam...



Səhnədə bir başqa idi. Gözəl, zərif, cazibədar, dinamik və səmimi. İndi o zamanın lent yazılarına baxanda bu qədər sevilməsinin səbəblərini axtarır və saydığım səbəblərdən daha çox biri üzərində dayanıram: səmimiyyət. Sözsüz ki, tamaşaçı da bunu duydu və beləcə, o, xalqın sevimlisi olmağı bacardı. İndi inanılması çətin olsa da, yaşının 70-ci dayanacağındadır bu sarısaçlı, mavigözlü Azərbaycan qızı...

**səh.6**




Tretyakovkanın şah əsərlərinə şəxsi baxış

**səh. 3**



30 yaşlı "Bir dəlinin qeydləri"

**səh. 5**



Azərbaycanlı cazmenin Osloda konsertləri

**səh.8**

# AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN

## Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun QƏRARI

**13 fevral 2024-cü il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova (məruzəçi-hakim), Humay Əfəndiyeva, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, İsa Nəcəfov və Kamran Şəfiyevdən (məruzəçi-hakim) ibarət tərkibdə, məhkəmə katibi Fəraid Əliyev və Vüqar Zeynalovun, maraqlı subyektin nümayəndələri Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahovun, sədr müavini Rövzət Qasımovun, katibləri Arifə Muxtarova və Mikayıl Rəhimovun, üzvləri Fuad Cavadov, Şaitdin Əliyev, Bəxşeyiş Əsgərov, Nailə Əsgərova, Tofiq Həsənov, Ramiz İbrahimov, Validə Kazımova, İlham Məmmədov, Nizami Nadirxanlı, Qabil Orucov, Hüseyn Paşayev, Almas Qəhrəmanlı, Etibar Quliyev və İlkin Şahbazovun, ekspertlər Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin əməkdaşları Sevda Süleymanova və Fərid Əhmədovun, Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru Nəsib Şükürov və İnsan hüquqları və informasiya hüququ kafedrasının professoru, hüquq elmləri doktoru Etibar Əliyevin iştirakı ilə, Azərbaycan Respublikası Konstitusiyasının 102-ci maddəsinə və 130-cu maddəsinin VIII hissəsinə müvafiq olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasından daxil olmuş protokol və ona əlavə edilmiş sənədlər üzrə 2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinə dair xüsusi konstitusiya icraatı qaydasında konstitusiya işinə baxdı.

Hakimlər S.Salmanova və K.Şəfiyevin məruzələrini, maraqlı subyektin nümayəndəsi M.Pənahovun çıxışını, ekspertlər S.Süleymanova və N.Şükürovun rəylərini dinləyib, iş materiallarını öyrənərək Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin I hissəsinə, Azərbaycan Respublikası Seçki Məcəlləsinin müvafiq maddələrinə və Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 7 dekabr tarixli Sərəncamına uyğun olaraq 2024-cü il fevralın 7-də növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri keçirilmişdir.

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 108.2 və 203.3-cü maddələrinə müvafiq olaraq səsvermənin nəticələri haqqında dairə seçki komissiyalarının protokollarında olan bütün məlumatları ümumiləşdirərək, Azərbaycan Respublikası Prezidenti seçkiləri üzrə səsvermənin nəticələrinə dair 2024-cü il 11 fevral tarixli protokolu tərtib etmişdir. Həmin protokol Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 11 fevral tarixli 10/36 saylı qərarı ilə təsdiq edilmişdir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 203.1-ci maddəsinə əsasən, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Konstitusiyasının 102-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrini təsdiq və rəsmən elan edilməsi üçün Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə təqdim etmişdir.

Seçkilərin yekunlarına dair Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası tərəfindən təqdim olunmuş sənədlərin Azərbaycan Respublikası Seçki Məcəlləsinin tələblərinə uyğunluğunun yoxlanılması məqsədilə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi müvafiq ekspertləri cəlb etmiş, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 56-cı maddəsinə əsasən Azərbaycan Respublikasının apellyasiya məhkəmələrindən, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsindən, Azərbaycan Respublikasının Ali Məhkəməsindən və Azərbaycan Respublikasının Prokurorluğundan seçki hüquqlarının müdafiəsi ilə bağlı məlumatları tələb etmişdir.

Azərbaycan Respublikası Prezidenti seçkilərinin yekunlarına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən təqdim olunmuş sənədlərdən göründüyü kimi, seçki qutularında 4 967 795 (dörd milyon doqquz yüz altmış yeddi min yeddi yüz doxsan beş) seçki bülleteni müəyyən edilmiş, bunlardan 9 828 (doqquz min səkkiz yüz iyirmi səkkiz) səs etibarsız hesab edilmişdir.

Etibarlı hesab edilmiş 4 957 967 (dörd milyon doqquz yüz əlli yeddi min doqquz yüz altmış yeddi) səs prezidentliyə namizədlər arasında aşağıdakı qaydada bölünmüşdür:

**Əliyev Fuad Ağası oğlu** – lehinə 26 517 (iyirmi altı min beş yüz on yeddi) səs və ya 0.54 faiz;

**Əliyev İlham Heydər oğlu** – lehinə 4 567 458 (dörd milyon beş yüz altmış yeddi min dörd yüz əlli səkkiz) səs və ya 92.12 faiz;

**Həsənquliyev Qüdrət Müzəffər oğlu** – lehinə 85 411 (səksən beş min dörd yüz on bir) səs və ya 1.72 faiz;

**Musayev Elşad Nəbi oğlu** – lehinə 32 885 (otuz iki min səkkiz yüz səksən beş) səs və ya 0.66 faiz;

**Mustafa Fazil Qəzənfər oğlu** – lehinə 98 421 (doxsan səkkiz min dörd yüz iyirmi bir) səs və ya 1.99 faiz;

**Nurullayev Razi Qulaməli oğlu** – lehinə 39 643 (otuz doqquz min altı yüz qırx üç) səs və ya 0.80 faiz;

**Oruc Zahid Məhərrəm oğlu** – lehinə 107 632 (yüz yeddi min altı yüz otuz iki) səs və ya 2.17 faiz.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 100.12-ci maddəsinə görə, protokollar seçki komissiyasının həlledici səs hüquqlu üzvlərinin ümumi sayının ən azı 2/3-si tərəfindən imzalanır. Həmin Məcəllənin 28.2-ci maddəsinə əsasən, Mərkəzi Seçki Komissiyasının qərarları açıq səsvermə yolu ilə Mərkəzi Seçki Komissiyasının iclasında komissiya üzvlərinin 17-si və ya 18-i iştirak edərsə – azı 12 üzvün səs çoxluğu ilə qəbul edilir.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə təqdim olunmuş səsvermənin nəticələri haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının protokolu Mərkəzi Seçki Komissiyasının 18 üzvündən 18-i tərəfindən imzalanmışdır.

Ekspert S.Süleymanova bildirmişdir ki, Azərbaycan Respublikası Prezidenti seçkilərinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 11 fevral tarixli protokolu Azərbaycan Respublikası Seçki Məcəlləsinin 100.2, 100.12, 108.2 və 203.3-cü maddələri baxımından düzgün tərtib edilmişdir və qanunvericiliyin tələblərinə uyğundur.

Ekspert N.Şükürovun rəyinə əsasən, Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının protokolu Azərbaycan Respublikası Seçki Məcəlləsinin müvafiq maddələrinin tələblərinə tam cavab verir.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə daxil olmuş məlumatlardan göründüyü kimi, seçki hüquqlarının müdafiəsi ilə bağlı Bakı Apellyasiya Məhkəməsində səkkiz, Sumqayıt Apellyasiya Məhkəməsində isə bir ərizəyə baxılmış və həmin ərizələr əsassız olduğundan təmin edilməmişdir.

Azərbaycan Respublikası Ali Məhkəməsinin məlumatına görə, məhkəmə aktlarından verilmiş üç kassasiya şikayəti təmin olunmadan saxlanılmışdır.

Gəncə, Şirvan, Şəki Apellyasiya Məhkəmələri və Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi seçki hüquqlarının müdafiəsi ilə bağlı hər hansı ərizənin daxil olmadığını bildirmişlər.

Azərbaycan Respublikası Prokurorluğunun məlumatına əsasən, seçki hüquqlarının pozulması ilə əlaqədar bir şikayət üzrə aparılmış araşdırma zamanı həmin şikayətdə irəli sürülmüş dəlillərin öz təsdiqini tapmadığı müəyyən edilmişdir.

Göstərilənləri nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu 2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 11 fevral tarixli protokolunu Azərbaycan Respublikası Seçki Məcəlləsinin 100.2, 100.12, 108.2 və 203.3-cü maddələrinə uyğun hesab edir.

Bununla əlaqədar olaraq Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu belə nəticəyə gəlir ki, Azərbaycan Respublikası Prezidenti seçkilərinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının protokolunda əks olunmuş nəticələr təsdiq edilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin II hissəsinə əsasən, Azərbaycan Respublikasının Prezidenti səsvermədə iştirak edənlərin yarısından çoxunun səs çoxluğu ilə seçilir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 203.4-cü maddəsinə müvafiq olaraq, Azərbaycan Respublikasının Prezidentliyinə namizədə səsvermədə iştirak etmiş seçicilərin yarısından çoxu səs verdikdə, o, Azərbaycan Respublikasının Prezidenti seçilmiş sayılır.

Qeyd olunduğu kimi, etibarlı hesab edilmiş seçici səslərindən 4 567 458 (dörd milyon beş yüz altmış yeddi min dörd yüz əlli səkkiz) səs və ya 92.12 faiz Əliyev İlham Heydər oğlunun lehinə verilmişdir.

Beləliklə, Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin II hissəsinin və Azərbaycan Respublikası Seçki Məcəlləsinin 203.4-cü maddəsinin tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının Prezidentliyinə namizəd Əliyev İlham Heydər oğlu Azərbaycan Respublikasının Prezidenti seçilmiş elan edilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 102-ci maddəsini, 130-cu maddəsinin VIII və IX hissələrini, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 203.1-ci maddəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 56, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

**1.** 2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 11 fevral tarixli protokolunda əks olunmuş nəticələr təsdiq edilsin.

**2.** Azərbaycan Respublikasının Prezidentliyinə namizəd Əliyev İlham Heydər oğlu Azərbaycan Respublikasının Prezidenti seçilmiş elan edilsin.

**3.** Qərar elan olunduğu andan qüvvəyə minir.

**4.** Qərar Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.

5. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr Fərhad Abdullayev**

# Milli Dram Teatrının "Manqurt"u Lənkəran səhnəsində

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə teatrların regionlarda qastrol səfərləri bu il də davam edir. Məqsəd regionlarda mədəni həyatın fəallaşdırılması, əhalinin, xüsusilə də gənclərin asudə vaxtının keyfiyyətinin yüksəldilməsi, yerli yaradıcı kollektivlərlə daha sıx ünsiyyətə və faydalı təcrübə mübadiləsinə şərait yaratmaqdır.



Layihə çərçivəsində Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı "Manqurt" tamaşası ilə Lənkəran Dövlət Dram Teatrında çıxış edib.

Çingiz Aytmatovun "Gün var əsrə bərabər" romanının motivləri əsasında hazırlanan tamaşanın quruluşçu rejissoru Anar Babalı, rejissoru İzamə Babayeva, rəssamı Əməkdar mədəniyyət işçisi İlham Elxanoğlu, işıq üzrə rəssamı Rafael Həsənov, rejissor assistenti Könül Kərimovadır.

Birhissəli epik rəvayət olan səhnə əsərində Əməkdar artistlər Mehriban Xanlarova, Elşən Rüstəmov, aktyorlar Ramin Şıxəliyev, Tural İbrahimov, Firuzə Balayeva, Elsevər Rəhimov iştirak ediblər.

# "Azərbaycan muğamı" – BMM-də ustad dərsləri

Beynəlxalq Muğam Mərkəzi fevralın 15-dən "Azərbaycan muğamı" adlı yeni layihə təqdim edəcək.



Layihə tar ifaçılığı sənətinə həsr olunan ustad dərsi ilə başlayacaq. Dərs tanınmış tərzən və pedaqoq Elxan Müzəffərov tərəfindən aparılacaq.

Layihənin məqsədi klassik ifaçılıq məktəbimizin yaşadılmasına və gələcək nəsillərə ötürülməsinə, ustad-şagird ənənələrinin qorunmasına dəstək olmaqdır. İl ərzində mütəmadi olaraq təşkil ediləcək ustad dərslərində tar ifaçılıq sənətinin görkəmli nümayəndələrinin iştirakı nəzərdə tutulub.

Ustad dərslərində iştirak sərbəstdir və maraqlanan hər kəs iştirak edə bilər.

# "Bu sırf cavab tədbiri idi..."

## Azərbaycan XİN Ermənistanı hərbi eskalasiyadan çəkinməyə çağırıb

Ermənistan Xarici İşlər Nazirliyinin Azərbaycan Silahlı Qüvvələrinin Ermənistan tərəfinin təxribatına qarşı gördüyü tədbirlərin eskalasiya üçün bəhanə olması ilə bağlı iddiaları tamamilə əsassızdır.

Bu fikir iki ölkə arasındakı sərhəd zonasında baş verən son hərbi təxribatlarla bağlı Ermənistan Xarici İşlər Nazirliyinin bəyanatına dair Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) şərhində yer alıb.

Şərhdə qeyd edilib ki, Azərbaycanın hərbi qulluqçusunun yaralanması ilə nəticələnən hərbi təxribatdan sonra Azərbaycan tərəfi erməni hərbi postundan irəli gələn təhlükəni aradan qaldırıb. Bu tədbir sırf cavab tədbiri idi.

"Azərbaycan sülh prosesinə sadiqdir və Ermənistan tərəfini bu istiqamətdə səyləri təhlükə altına qoya biləcək hərbi eskalasiyalardan çəkinməyə çağırır", – deyə XİN-in şərhində vurğulanıb.

Xatırladaq ki, fevralın 12-də saat 13:37 radələrində Azərbaycan-Ermənistan şərti dövlət sərhədinin Zəngilan rayonu ərazisindən keçən hissəsində Ermənistan silahlı qüvvələrinin Qafan rayonunun Nerkin-And yaşayış məntəqəsi istiqamətində yerləşən mövqeyindən Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarının Zəngilan rayonunun Kolluqışlaq kəndi ərazisində yerləşən mövqeyinə atəş açılıb.

DSX-dən bildiriblər ki, təxribat nəticəsində Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusu əsgər Xəlilzadə Pərviz Ağakişi oğlu yaralanıb. Hərbi qulluqçu helikopterlə ixtisaslaşmış tibb müəssisəsinə təxliyə edilib.






Baş vermiş hadisə, o cümlədən qarşı tərəfdən atəşin açılması anı videomüşahidə kameraları vasitəsilə qeydiyyata alınıb.

***

Fevralın 13-də Azərbaycan DSX-nin bölmələri tərəfindən Ermənistan silahlı qüvvələrinin bir gün öncə törətdiyi təxribata cavab olaraq "qisas əməliyyatı" keçirilib.

DSX-dan verilən məlumata görə, əməliyyat nəticəsində əsgərimizə atəş açılan Ermənistan silahlı qüvvələrinin Qafan rayonunun Nerkin-And yaşayış məntəqəsinin yaxınlığındakı döyüş postu darmadağın edilib, döyüş mövqeləri susdurulub. Məhv edilmiş döyüş postunun şəxsi heyəti arasında ciddi itkilərin olması barədə məlumatlar mövcuddur.

Məlumatda o da vurğulanıb ki, Ermənistan tərəfinin sərhəddə əməliyyat şəraitinin gərginləşdirilməsinə yönələn hər bir təxribatına bundan sonra daha ciddi və qəti tədbirlərlə cavab veriləcək. Baş vermiş hadisəyə görə məsuliyyət tam şəkildə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

Qeyd edək ki, fevralın 13-də Ermənistan Müdafiə Nazirliyi baş verən qarşıdurmada itkilərinin olduğunu açıqlayıb. Bildirilib ki, 2 hərbçi həlak olub və yaralanıb var.

Qeyd edək ki, Azərbaycanın Müdafiə Nazirliyi də Ermənistan tərəfin təxribatı barədə məlumat yayıb. Bildirilir ki, fevralın 12-si saat 20:50-də və 23:40-da Ermənistan silahlı qüvvələrinin bölmələri Tovuzqala rayonunun Çinarlı yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Ordumuzun Tovuz rayonunun Koxanəbi yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.

# Moskva tərəfləri təmkinli olmağa çağırır

Moskva İrəvan və Bakını vəziyyətin hazırkı gərginləşməsi ilə bağlı təmkinli olmağa çağırır.

Bu barədə fevralın 13-də RF Prezidentinin mətbuat katibi Dmitri Peskov jurnalistlərə açıqlamasında deyib.

"Sözsüz ki, bu, təmas xəttindən gələn həyəcanlı xəbərlərdir. Qarşı tərəfin təxribat saya biləcəyi hər cür hərəkətlərdən hər vasitə ilə çəkinmək üçün hər iki tərəfi təmkinli olmağa çağırırıq", – deyə Peskov bildirib.

O əlavə edib ki, Moskva hadisələrin gedişini "çox diqqətlə müşahidə edəcək və hər iki tərəflə təmasları davam etdirəcək".

Kremlin təmsilçisi hesab edir ki, bu cür hadisələr sülh sazişi üzrə danışıqların irəliləməsinə kömək etməyəcək.

# "DokuBaku"ya filmlərin qəbulu elan edilib

"DokuBaku" VIII Beynəlxalq Sənədli Film Festivalında iştirak üçün ərizələrin qəbuluna başlanıldığı elan edilib.

Festivalın builki əsas mövzusu iCOSMOSdur. Festivalın mərkəzində personajların təleyini formalaşdıran, həm ani, həm də gecikmiş seçimlərin nəticələrini araşdıran hekayə səyahəti dayanır. Bununla festival kinorejissorları və tamaşaçıları introspektiv səyahətə çıxmağa, özünüdərk etməyə və bəşəriyyəti kosmosun genişliyinə – ali mənliyə bağlayan dərin əlaqələri dərk etməyə dəvət edir.

Festivalın nominasiyaları "Ən yaxşı tammetrajlı sənədli film", "Ən yaxşı qısametrajlı sənədli film", "Ən yaxşı yerli sənədli film", "Uşaqlar üçün ən yaxşı sənədli film" (Doku-Kids) və "Non-Main müsabiqə"dir.

DOKU BAKU INTERNATIONAL DOCUMENTARY FILM FESTIVAL

Ərizə qəbulu martın 3-dən mayın 5-dək olacaq. Seçilmiş filmlər 2024-cü il avqustun 8-də elan ediləcək. Festival oktyabrın 1-dən 6-dək keçiriləcək.

# Tretyakovkanın şah əsərlərinə şəxsi baxış

## Qalereyanın keçmiş baş direktorunun kitabı Bakıda təqdim edilib

Fevralın 12-də Bakı Kitab Mərkəzində tanınmış rusiyalı sənətşünas, Rusiya Dövlət Tretyakov Qalereyasının keçmiş baş direktoru Zelfira Trequlova ilə görüş keçirilib.



Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva tədbirdə iştirak ediblər.

Görüş çərçivəsində Zelfira Trequlovanın "Tretyakovkanın şah əsərləri. Şəxsi baxış" kitabının təqdimatı olub.

Tədbirdən əvvəl müəllif AZƏRTAC-a müsahibəsində kitabın ərsəyə gəlməsindən danışıb: "Tretyakov Qalereyasında saxlanılan rus və sovet rəssamlarının əsərləri bu kitabın yazılmasına ilham verib. Əslində, qəribə də olsa, pandemiya və çox məşhur simalar – aktyor Konstantin Xabenski və müğənni Sergey Şnurovla birlikdə çəkdiyimiz iki filmin çəkilişi buna təkan oldu. Bu filmlərə Tretyakov Qalereyasının XX əsrin ən sevimli sənətkarları haqqında danışdığım "Arzamas" təhsil resursunda çox ciddi podkastlar silsiləsi əlavə edildi. Bu sənətkarlar arasında mənim üçün çox böyük əhəmiyyət kəsb edən dahi sənətkar Tahir Salahov var. Buna görə də kitab onun yaratdığı Qara Qarayevin portreti və digər görkəmli rəssam Erik Bulatovun əsəri haqqında hekayə ilə başa çatır".

Z.Trequlovanın sözlərinə görə, o, kitabda dərin şəxsi baxışını bölüşmək istəyib: "Mən, əlbəttə ki, sənətşünasam. Lakin geniş auditoriyaya, əlbəttə ki, çox düşündüyüm bəzi sadə, aydın və əsas, lakin əlçatan şeyləri çatdırmaq istəyirdim. Bu kitab, mənə elə gəlir ki, insanı böyük sənətlə dialoq qurmaqdan çəkinməməyə və bu barədə düşünməyə başlamaqdan qorxmamağa sövq etməlidir".

Əməkdar incəsənət xadimi Emin Məmmədov tədbiri açaraq bir çox layihələrin təşkilatçısı olan sənətşünas Zelfira Trequlovanın fəaliyyəti haqqında danışıb. Diqqətə çatdırıb ki, 2015-ci ildə o, Tretyakov Qalereyasının direktoru olarkən Venesiya Biennaledəki Azərbaycan milli pavilyonunu ziyarət edib. Orada Heydər Əliyev Fondu, Azərbaycan Milli İncəsənət Muzeyi, Müasir İncəsənət Muzeyinin kolleksiyasından 1960-1980-ci illərin rəssamlarının əsərləri təqdim edilmişdi: "Sərgimizi görən Zelfira xanım dedi: Mən bu sərgini Tretyakov Qalereyasında keçirməliyəm". 2016-cı ildə qalereyada Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva və Fondun vitse-prezidenti Leyla Əliyevanın iştirakı ilə "Abşeronun bürcü" adlı sərginin açılışı oldu...".

Sonra söz kitabın müəllifinə verilib. Zelfira Trequlova Rusiyadan kənarda ilk dəfə kitabının təqdimatının məhz Azərbaycanda, sevdiyi və məmnuniyyətlə gəldiyi Bakıda keçirilməsindən şad və xoşbəxt olduğunu xüsusi vurğulayıb. "Bu gün də istisna deyil. Bizi burada gözəl hava qarşılayıb. Moskva şaxtalarından sonra bu, taleyin hədiyyəsidir. Sahil boyunca gəzinti, canlı və işıqlı şəhər, sadəcə, heyrətamizdir", – deyə sənətşünas təəssüratlarını bölüşüb.

O, Leyla Əliyevaya və Heydər Əliyev Fonduna minnətdarlığını bildirib.

Zelfira Trequlova "Tretyakovkanın şah əsərləri. Şəxsi baxış" kitabı ilə bağlı fikirlərini bölüşüb, görüş iştirakçılarının suallarını cavablandırıb.

Qeyd edək ki, kitabda XIX–XX əsrlər Rusiya rəssamları İlya Repin, Mixail Vrubel, Kazimir Maleviç və başqalarının Tretyakov Dövlət Qalereyasında saxlanılan məşhur əsərlərindən bəhs olunur. Müəllif dünya sənət tarixində hansı rəsmlərin ona nə üçün ən əhəmiyyətli göründüyü barədə söz açır.

Zelfira Trequlova əslən Tatarıstandandır. Atası İsmayıl Trequlov kinooperator olub. Sənətşünaslıq üzrə fəlsəfə doktoru Z.Trequlova bir çox beynəlxalq muzey sərgisi layihələrinin kuratorudur. 2002-2013-cü illərdə "Moskva Kremli" Dövlət Tarix-Mədəniyyət Muzey-Qoruğunun sərgi işi və beynəlxalq əlaqələr üzrə baş direktorunun müavini, 2015-2023-cü illərdə Dövlət Tretyakov Qalereyasının baş direktoru olub. RF Prezidenti yanında Mədəniyyət və İncəsənət Şurasının üzvüdür.

# Gələcək dövr üçün inkişaf strategiyasında elmin vəzifələri

Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Direktorlar Şurasının ilk iclası keçirilib.

AMEA-dan bildirilib ki, iclasda AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, AMEA Rəyasət Heyətinin üzvləri, elmi müəssisə və təşkilatların direktorları, direktor müavinləri və aidiyyəti şəxslər iştirak ediblər.

İsa Həbibbəyli şuranın ilk iclasının əlamətdar dövrə təsadüf etdiyini, ərazi bütövlüyü və suverenliyimizin tam bərpa olunduğu bir şəraitdə keçirilən prezident seçkiləri ilə ölkəmizin yeni tarixi dövrə qədəm qoyduğunu bildirib. Diqqətə çatdırıb ki, hazırda qarşımızda duran başlıca vəzifə, Prezident İlham Əliyevin yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində söylədiyi kimi, gələcək dövr üçün milli ideyamızın və dövlətimizin yeni inkişaf strategiyasının müəyyənləşdirilməsində aktiv iştirak etmək olmalıdır. Bu xüsusda alimlərimizin üzərinə böyük məsuliyyət düşür.

Akademik bu istiqamətdə AMEA-nın Rəyasət Heyətində ilkin müzakirələrin aparıldığını və elmi müəssisələrdə də müzakirələrin keçiriləcəyini bildirib. Qeyd edib ki, AMEA-da idarəetmənin və aparılan islahatların çevikliyinin artırılması, elmi müəssisələr arasında qarşılıqlı əlaqələrin yaradılması, birgə elmi və elmi-texniki tədbirlərin təşkili, əmək intizamının tənzimlənməsi məqsədilə Direktorlar Şurası yaradılıb.

İclasda Direktorlar Şurasının əsasnamə layihəsi müzakirəyə çıxarılıb və təsdiq olunması üçün AMEA-nın Rəyasət Heyəti qarşısında vəsatət qaldırılıb.

Həmçinin AMEA-nın Memarlıq və İncəsənət İnstitutunda əmək intizamının vəziyyəti haqqında məsələ müzakirə olunub. Memarlıq və İncəsənət İnstitutunda əmək intizamı sahəsində yol verilmiş nöqsanlara görə İnsan resursları şöbəsinin müdiri, müxtəlif elmi-tədqiqat şöbələrində çalışan 4 nəfər elmi işçi tutduqları vəzifələrdən azad edilib.

AMEA-nın vitse-prezidentləri – akademik Rasim Əliquliyev və akademik Gövhər Baxşəliyeva, həmçinin AMEA-nın müxbir üzvü Musa Qasımlı, professor İlham Məmmədzadə, tarix üzrə fəlsəfə doktoru Fərhad Quliyev və başqaları çıxış edərək fikir və təkliflərini səsləndiriblər.





### Füzulinin 530 illiyi ilə bağlı hansı işlər görüləcək?

AMEA Humanitar Elmlər Bölməsi Elmi şurasının da cari ildə ilk iclası keçirilib.

Şuranın sədr müavini akademik Teymur Kərimli İlham Əliyevin "Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinin qeyd edilməsi haqqında" 2024-cü il 25 yanvar tarixli Sərəncamının icrası ilə bağlı elmi-tədqiqat müəssisələrinin təklifləri nəzərə alınmaqla hazırlanmış tədbirlər planını iclas iştirakçılarının diqqətinə çatdırıb.

Bildirib ki, il ərzində Ədəbiyyat İnstitutu tərəfindən "Şərq poeziyasının Məhəmməd Füzuli zirvəsi" adlı elmi konfransın, Dilçilik İnstitutu tərəfindən "Məhəmməd Füzulinin dili" adlı elmi sessiyanın, Əlyazmalar İnstitutu tərəfindən "Məhəmməd Füzuli: sələflər və xələflər – Orta əsrlər əlyazmaları və Azərbaycan mədəniyyətinin tarixi problemləri" mövzusunda XVIII respublika elmi-nəzəri konfransının, eləcə də Folklor İnstitutu tərəfindən "Füzuli və Şərq folkloru" və Memarlıq və İncəsənət İnstitutu tərəfindən "Füzuli dünyası Azərbaycan incəsənətində" adlı respublika elmi konfranslarının keçirilməsi nəzərdə tutulub.

O həmçinin Məhəmməd Füzulinin 530 illiyi münasibətilə institutlar tərəfindən akademik Həmid Araslının "Böyük Azərbaycan şairi Füzuli", "Sənətkarın elmi pasportu" seriyasından "Məhəmməd Füzuli: həyatı və yaradıcılığı, Stanislava Plyaskovitsk-Rımkeviçin "Məhəmməd Süleyman oğlu Füzuli", "Məhəmməd Füzuli – 530" biblioqrafiyası, M.Füzulinin dili haqqında məqalələr toplusu və "Görünməyən Füzuli" monoqrafiyasının yenidən işlənilmiş formatda nəşrinin hazırlanacağını bildirib.

Bundan başqa, dahi Azərbaycan mütəfəkkiri Füzuli haqqında nəşr olunmuş kitablardan ibarət sərgi təşkil olunacaq, şairin Əlyazmalar İnstitutunda qorunan əsərlərinin əlyazmalarından ibarət sərgi ictimaiyyətə təqdim ediləcək.

İclasda, həmçinin Humanitar Elmlər Bölməsinin elmi-tədqiqat müəssisələrində böyük yazıçı, dramaturq, publisist Cəlil Məmmədquluzadənin 155 illiyinin qeyd edilməsi, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda ədəbiyyatşünas alim Həmid Araslının 115 illiyinə həsr olunan elmi sessiyanın keçirilməsi və institutlarda Azərbaycan ictimai fikrinin görkəmli nümayəndəsi, tanınmış maarifçi, yazıçı-publisist Əli bəy Hüseynzadənin 160 illiyi ilə bağlı tədbirlərin təşkilinə dair qərarlar qəbul olunub.

# Orqan və violin musiqisi axşamı

Fevralın 10-da Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının Kamera və Orqan Musiqisi Zalının səhnəsində orqan və violin musiqisi axşamı keçirilib.



Konsertin solistləri Nigar Məmmədova (orqan), Renata Abubəkirova (violin), Ərol Rzayev (cello) ifaları ilə dinləyicilərə xoş təəssürat bağışlayıblar. Proqramda Azərbaycan, Rusiya və Avropa bəstəkarlarının əsərləri səslənib.

# Yeni "Şekspir"i qarşılayın...

Şuşa Dövlət Musiqili Dram Teatrı premyeraya hazırlaşır. Yaradıcı heyət bu dəfə Xalq yazıçısı Elçinin absurd teatr ənənəsinin davamı kimi səciyyələndirilən "Şekspir" əsərinə müraciət edib.




Tamaşaya teatrın baş rejissoru Əməkdar artist Loğman Kərimov quruluş verib. Quruluşçu rəssam Valeh Məmmədov, musiqi tərtibatçısı Ağasəlim Feyzullayevdir.

Rolları Əməkdar artist Nazir Rüstəmov (İ.V.Stalin), Emin Sevdiməliyev (Baş həkim), Sevinc Ağayeva (Həkim), Vüsal Məmmədov (Sanitar), Orxan Abışov (Drob 13), Püstəxanım Zeynalova (Sara Bernar), Mobil Qurbanov (Veneralı), Zəhra Salayeva (Ər-arvad) ifa edirlər.

Əsərdə hadisələr ruhi-əsəb dispanserində baş verir. Cəmiyyətin dəli və ağıllı kəsimi bir daha üz-üzə qoyulur. Yazıçı əsərin kulminasiyasında ağıllı-dəli münasibətləri tendensiyasının təzahürünə yeni aspektdən yanaşıb.

# Mədəniyyət Nazirliyində Mərakeşin media təmsilçiləri ilə görüş

Mədəniyyət Nazirliyində ölkəmizdə səfərdə olan Mərakeş Krallığının nüfuzlu media orqanlarının təmsilçilərindən ibarət nümayəndə heyəti ilə görüş keçirilib.



Görüşdə Mərakeşin "Məqrib ərəb press" agentliyinin redaktoru Mohammed Asvab, "L'Opinion" nəşrinin redaktoru Anass Machloukh, "Le Matin" dərgisinin redaksiya direktoru Souhail Nhaili və bu ölkənin bir sıra digər media nümayəndələri iştirak ediblər.

Qonaqları salamlayan mədəniyyət naziri Adil Kərimli ölkəmizin qədim və zəngin mədəniyyəti haqqında məlumat verib, həmçinin Azərbaycanla Mərakeş Krallığı arasında mədəni əlaqələrdən danışıb.

Bildirilib ki, Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən olan Şuşa şəhəri ICESCO tərəfindən 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilib. Bu il eyni zamanda Mərakeş Krallığının Mərakeş şəhəri də "İslam dünyasının mədəniyyət paytaxtı" missiyasını yerinə yetirir. "Paytaxt ili" çərçivəsində birgə fəaliyyət barədə məsələlər müzakirə olunub.

# Paytaxt məktəblilərinin Heydər Əliyev mərkəzlərinə ekskursiyaları

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin tabeliyində olan Yasamal rayon Heydər Əliyev Mərkəzinə 158,153, 60 və 53 nömrəli tam orta məktəblərin müəllim və şagird kollektivinin, Qaradağ rayon Heydər Əliyev Mərkəzinə isə 166 nömrəli məktəbin müəllim və şagirdlərinin ekskursiyası təşkil edilib.



Ekskursiya zamanı Yasamal rayon Heydər Əliyev Mərkəzində şagirdlərə Ulu öndərin həyatının və ictimai-siyasi fəaliyyətinin müxtəlif dövrlərini, zəngin və çoxşaxəli siyasi irsini, ölkəmizin tərəqqisi uğrunda göstərdiyi çoxsaylı xidmətləri özündə əks etdirən eksponatlar, fotoşəkillər və kitablar haqqında ətraflı məlumat verilib.

Qaradağ rayon Heydər Əliyev Mərkəzində isə şagirdlər mərkəzin muzey bölmələri, Ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinə aid fotoşəkil və digər eksponatlarla tanış olublar.

# Sudan öz ədəbiyyatını Azərbaycanda tanıtmaq istəyir

Sudanın Azərbaycandakı müvəqqəti işlər vəkili Mustafa Abdel Halim Dövlət Tərcümə Mərkəzində olub.

Mərkəzin Beynəlxalq əlaqələr idarəsinin rəisi Püstə Axundova ilə görüşdə Sudan ədəbiyyatının Azərbaycan dilinə tərcümə və nəşri, ölkələrarası ədəbi əlaqələrin qurulması və inkişafı istiqamətində görüləcək işlər barədə fikir mübadiləsi aparılıb.

Görüşdə Sudanın nasir və şairlərinin, o cümlədən görkəmli yazıçı Əl-Tayyib Salihin ədəbi irsinin Azərbaycan oxucusuna çatdırılmasının əhəmiyyəti vurğulanıb, bu istiqamətdə əməkdaşlıq layihələrinin perspektivləri müzakirə edilib.

# Xaricdə təhsil üzrə Dövlət Proqramı çərçivəsində sənəd qəbulu

## Mədəniyyət və incəsənət sahəsi üzrə nüfuzlu ali təhsil müəssisələrinə də müraciət etmək olar

"Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı" çərçivəsində 2024-2025-ci tədris ili üzrə sənəd qəbuluna yaxın günlərdə start veriləcək.

Elm və Təhsil Nazirliyindən verilən xəbərə görə, 13 noyabr 2023-cü il tarixində 2024-2025-ci tədris ili üzrə "2022-2026-cı illər üzrə Dövlət Proqramı" çərçivəsində dünyanın nüfuzlu universitetlərinin bakalavriat və magistratura səviyyələri üzrə maliyyələşdiriləcək təhsil proqramlarının siyahısı təsdiq edilərək ictimaiyyətə təqdim olunub.

Siyahı 15 prioritet ixtisas sahələri üzrə dünyanın 28 ölkəsinin 179 nüfuzlu ali təhsil müəssisəsində tədris olunan 631 bakalavriat və 3362 magistratura olmaqla, ümumilikdə 3993 təhsil proqramını əhatə edir. Müvafiq siyahıda yer alan proqramlardan əlavə namizədlərin universitetlər üzrə "Top10"da yer alan ali təhsil müəssisələrindən istənilən ixtisas üzrə, eyni zamanda, bu il ilk dəfə siyahıya əlavə olunan mədəniyyət və incəsənət sahəsi üzrə müvafiq nüfuzlu ali təhsil müəssisələri üzrə Dövlət Proqramına müraciət etməsi nəzərdə tutulub.

"2022-2026-cı illər üzrə Dövlət Proqramı"na Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş siyahıda yer alan proqramların biri üzrə bakalavriat və magistratura səviyyəsinə qəbul olmağa hazırlaşan və ya sözügedən siyahıda yer alan proqramların birində hazırda təhsil alan Azərbaycan Respublikası vətəndaşları müraciət edə bilərlər. Proqrama müraciət portal.edu.az şəxsi kabineti üzərindən həyata keçiriləcək.

"2022-2026-cı illər üzrə Dövlət Proqramı"na müraciət edən zaman namizədlər müvafiq təhsil səviyyələri üzrə tələb olunan sənədləri təqdim etməlidirlər. Tələb olunan sənədlər haqqında məlumat nazirliyin saytında müvafiq linkdə yerləşdirilib.

Qeyd edək ki, "2022-2026-cı illər üzrə Dövlət Proqramı" çərçivəsində indiyədək 21 xarici ölkənin 139 ali təhsil müəssisəsində 752 nəfər tələbə təqaüd almaq hüququ qazanıb.

# Mədəniyyət nazirinin vətəndaşlarla görüşünün vaxtı dəyişdirilib

Mədəniyyət naziri Adil Kərimlinin fevralın 23-də Salyan rayonunda keçirilməsi nəzərdə tutulan vətəndaşlarla görüşünün vaxtı dəyişdirilib.

Qəbul fevralın 17-də Salyan rayonu Heydər Əliyev Mərkəzində (Salyan şəhəri, Təbriz Xəlilbəyli küçəsi, 136) keçiriləcək.

Qəbulda Salyan, Hacıqabul, Biləsuvar, Neftçala rayonları və Şirvan şəhəri sakinlərinin iştirakı nəzərdə tutulub.

# Gəncə Filarmoniyasının yeni layihəsi – "Musiqi yolu"




Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyası "Musiqi yolu" layihəsinə başlayır. Filarmoniyadan bildirilib ki, layihə "Gəncə Dövlət Filarmoniyasından salamlar" və "Gəncə Dövlət Filarmoniyasına salamlar" sloqanları ilə gerçəkləşəcək.

Məqsəd paytaxt Bakıda, Gəncə və digər regionların mədəniyyət müəssisələrində fəaliyyət göstərən musiqiçilər arasında sənət mübadiləsi yaratmaq, bu sahənin inkişafına töhfə verməkdir.

"Musiqi yolu"na sosial şəbəkələr vasitəsilə ölkəmizin regionlarından ifaçılar qoşulacaqlar. Layihə həmçinin yaradıcı insanların tanınmasında rol oynayacaq.

# "Bacarıqlı əllər"



Şirvan şəhər Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə Şirvan şəhər sakini Fatimə Vəliyevanın "Bacarıqlı əllər" adlı fərdi sərgisi təşkil edilib.

Sərginin təşkilində məqsəd yaradıcı gənclərin tanıdılması, onların yaradıcılığının daha da inkişaf etməsi üçün imkanlar yaratmaqdır. Ekspozisiyada müəllifin bir-birindən maraqlı təbiət təsvirləri və digər əl işləri nümayiş olunub.

# Söz mülkünün sultanı



Şəmkir rayon Mərkəzi Kitabxanasının Uşaq şöbəsi dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin (1494–1556) 530 illiyi münasibətilə "Könül mülkünün sultanı – Məhəmməd Füzuli" başlığı altında tədbir təşkil edib.

Çıxışlarda Məhəmməd Füzulinin Azərbaycan ədəbiyyatının inkişafına verdiyi mühüm töhfələrdən danışılıb. Onun təkcə Azərbaycan ədəbiyyatının deyil, Şərq xalqlarının ədəbi irsinin zənginləşməsində mühüm rol oynadığı diqqətə çatdırılıb. Bildirilib ki, Füzuli zəngin yaradıcılığı ilə öz xalqının malik olduğu böyük ədəbi-bədii mirasdan ilhamlanıb. Şairin lirikasının əsl qüvvət və qüdrət mənbəyi xalqdır, həyatdır.

Sonda sərgiyə baxış olub.

# Tovuzda Xıdır Nəbi bayramı qeyd edilib



Türk xalqlarının mifik düşüncəsində təbiətin oyanışını müjdələyən, yazın, yaşıllığın səbirsizliklə gözlənilməsini tərənnüm edən, bolluq, bərəkət, firavanlıq inanclarının rəmzi kimi uzun əsrlər boyu yurdumuzda keçirilən bayramlardan biri Xıdır Nəbi bayramıdır. Bu bayram "Yazağzı Xızır", "Xıdır İlyas", yaxud "Qışyarısı" da adlanır.

Xıdır Nəbi, əsasən, Kiçik çillənin yarı olduğu ərəfədə, fevralın 9–11-ci günlərində keçirilir.

Fevralın 10-da Tovuzun Yuxarı Öysüzlü kəndində Xıdır Nəbi bayramı qeyd olunub. Böyük coşqu ilə keçən tədbirdə məclis iştirakçıları əl-ələ verərək musiqi sədaları altında yallı gedib, rəqs ediblər. Tədbir boyu göstərilən səhnəciklər, söylənilən şeir və haxıştalar izləyicilərdə xoş təəssüratlar yaradıb.

# "Füzuli və Şərq folkloru" – Şamaxıda elmi konfrans keçiriləcək

Məhəmməd Füzuli Azərbaycan ədəbi-bədii fikrinin inkişafında müstəsna yer tutan, Yaxın və Orta Şərq ölkələri ədəbiyyatına, bütövlükdə dünya ədəbiyyatına töhfələr verən qüdrətli söz sənətkarıdır. O, anadilli poeziyamızın mükəmməl nümunələrini yaradıb, Azərbaycan bədii dilini daha da zənginləşdirərək yeni zirvəyə yüksəldib. Ədəbiyyat tariximizdə yaranan ikinci ən böyük ədəbi məktəb də məhz onun adı ilə bağlıdır.

AMEA-nın Folklor İnstitutunun təşkilatçılığı ilə aprelin 5-də Şamaxı şəhərində "Məhəmməd Füzuli və Şərq folkloru" mövzusunda elmi konfrans keçiriləcək. Elmi konfrans Prezident İlham Əliyevin böyük Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin 530 illiyinin qeyd edilməsi haqqında sərəncamına əsasən təşkil olunacaq.

İştirak etmək istəyənlər 150-200 sözdən ibarət məruzə özətlərini 20 mart tarixinədək fuzuli530@mail.ru elektron poçt ünvanına göndərə bilərlər.

**Hazırladı: N.Məmmədli**

# Bu il Malıbəyli sakinləri doğma yurda qayıdacaqlar



Azərbaycanın işğaldan azad olunmuş bütün əraziləri kimi, Xocalı rayonunun Malıbəyli kəndində də geniş bərpa-quruculuq işləri həyata keçirilir. Malıbəyli kəndi 32 il əvvəl didərgin düşmüş doğma sakinlərini qoynuna almağa hazırlaşır.

"Bakı Abadlıq Xidməti" MMC-dən bildirilib ki, hazırda Malıbəyli kəndində 123 fərdi evdə və çoxmənzilli yaşayış binalarında bərpa-tikinti işləri aparılır. Kəndin ərazisində həmçinin təmizlik-abadlıq işləri də davam etdirilir. Fərdi evlər və çoxmənzilli binalarla yanaşı, kəndin infrastrukturu da yenidən qurulur, qaz xətləri çəkilir.

Şirkətin mühəndisi Nəcəf Kərimov bildirib ki, onlar fərdi yaşayış evlərinin bərpasını və yenidən tikintisini həyata keçirirlər: "Təmir-bərpa olunan evlərdə suvaq vurulur, dam örtükləri dəyişdirilir, köhnə konstruksiyalar yenisi ilə əvəzlənir".

Malıbəyli kənd sakini Xuda Məmmədov isə doğma kəndlərinin bərpasında və abadlaşdırılmasında böyük ruh yüksəkliyi ilə iştirak etdiklərini bildirib: "Malıbəyli kəndində aparılan bərpa-yenidənqurma və təmizlik işləri bizi sevindirir. Biz Malıbəyli kəndinin sakinləri olaraq kəndimizin bərpasında, abadlaşdırılmasında böyük həvəslə iştirak edirik".

## Turşsu kəndi də yenidən qurulur



Erməni işğalı zamanı dağıdılan yaşayış yerlərindən biri də Şuşa rayonunun Turşsu kəndidir. Həm turizm potensialı, həm də əsrarəngiz təbiəti ilə seçilən kənd azadlığının ilk baharına doğru yol alıb və yenidən qurulur.

Turşsu kəndindəki işlərin layihə rəhbəri Elnur Abdullayev bildirib ki, kənd Sarıbaba silsiləsinin Kiçik Kirs dağı ətəyində dəniz səviyyəsindən 1938 metr hündürlükdə yerləşir, ümumi ərazisi 122,7 hektardır. Əraziyə ilkin baxış zamanı bütün evlərin dağıldığı müəyyən edildiyi üçün, yaşayış yerinin yenidən qurulması və layihələndirilməsi qərarı verilib. 353 evin tikintisi nəzərdə tutulub. Kənd təbiətin füsunkar gözəlliyi olan bir ərazidə yerləşdiyi üçün ümumi konsept layihə gələcəkdə turizm sektorunun inkişafına töhfə verəcək şəkildə hazırlanır.

Kənddə infrastruktur, yaşayış evləri, kommunikasiya xətləri və digər tikililər tamamən yenidən qurulacaq. "Tikinti işləri vahid memarlıq üslubunda görüləcək. Həmçinin mərkəzi və əsas küçələrdən biri turizm üçün nəzərdə tutulub. Kəndin adını götürdüyü və yaxınlıqda yerləşən Turşsu bulağı ətrafında da turizm sektoru üçün vacib olan obyektlərin qurulması nəzərdə tutulur. Hazırda ərazidə hazırlıq işləri davam edir və yaxın günlərdə tikintiyə başlanılacaq", – deyə layihə rəhbəri bildirib.

# Laçın və Kəlbəcərdə üç yaşayış məntəqəsinin yenidən qurulmasına başlanılır



Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda bir qəsəbənin (Qorçu) və Kəlbəcər rayonunda iki kəndin (Çaykənd, Qamışlı) yenidənqurma layihəsi üzrə müqavilələr imzalanıb.

Bu barədə Şərqi Zəngəzur iqtisadi rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Bildirilib ki, Kəlbəcər rayonunun Çaykənd və Qamışlı kəndlərinin yenidən qurulmasına dair müvafiq müqavilələr "Azərdövlətsənaye" Dövlət Layihə İnstitutu ilə, Laçın rayonunun Qorçu qəsəbəsinin tikinti layihəsi üzrə müqavilə "Azərmemarlayihə" Dövlət Baş Layihə İnstitutu ilə bağlanılıb.

2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidmətinin icraçı direktoru vəzifəsini icra edən Fəxrəddin Verdiyevin sözlərinə görə, müqavilələr qeyd olunan yaşayış məntəqələrində minə yaxın fərdi evin, tam orta məktəblərin, uşaq bağçalarının və digər ictimai obyektlərin layihələndirmə işlərinin satınalınmasını əhatə edir.

# "Hophopnamə" kitab mərkəzinin daha bir qonağı

Sabirabaddakı "Hophopnamə" kitab mərkəzində detektiv yazıçı Elxan Elatlı ilə görüş keçirilib.



Mil-Muğan RMİ-nin rəisi Faiq Xudanlı dəvəti qəbul edib oxucularla görüşə gəldiyi üçün yazıçıya təşəkkürünü bildirib. Qeyd edib ki, görüş ideyası gənclərin yazıçının yaradıcılığına olan marağından yaranıb.

Tədbirin moderatoru Ağalar Ağammədov Elxan Elatlının həyat və yaradıcılığı barədə məlumat verib. Yazıçı oxucularla görüşdən məmnunluğunu bildirib, əsərləri haqqında söz açıb.

Qarşılıqlı dialoq şəklində keçən tədbirdə yazıçı oxucuları maraqlandıran sualları cavablandırıb, kitablarını imzalayaraq onlara təqdim edib.

Sonda qonağa Mil-Muğan RMİ tərəfindən hədiyyə təqdim edilib, xatirə şəkli çəkdirilib.

# İnformatika müəllimlərinin forumu

Sabirabad rayonunda "RM" nəşriyyatı və "Bələdçi" tədris mərkəzinin birgə layihəsi olan informatika müəllimlərinin respublika forumu keçirilib. Forum Mil-Muğan RMİ, Mil-Muğan Regional Təhsil İdarəsinin dəstəyi ilə gerçəkləşib.

Tədbirdə Mil-Muğan RMİ-nin rəis müavini Telman Əzimov, "RM" nəşriyyatının icraçı direktoru Muxtar Abbasov, Mil-Muğan RTİ-nin sektor müdiri Mahir Zahidov çıxış ediblər.

Foruma qatılan informatika müəllimləri bu sahə üzrə dərslik, dərs vəsaitləri və praktik alətlərin vəziyyəti, bu fənnin ali məktəblərə qəbul imtahanları proqramına daxil edilməsi və digər məsələlərlə bağlı fikirlərini bölüşüblər.

"RM" nəşriyyatının informatika ilə bağlı nəşrləri müəllimlərə hədiyyə edilib.

# Teatr-konsert müəssisələrinin fəaliyyətinə həsr olunmuş görüş



Fevralın 12-də Mərkəzi Aran RMİ-nin xidməti əhatəsində olan teatr-tamaşa və konsert müəssisələrinin fəaliyyətinə həsr olunmuş görüş keçirilib.

Görüş 2024-cü il yanvarın 27-də Lənkəran şəhərindəki Heydər Əliyev Mərkəzində mədəniyyət naziri Adil Kərimlinin iştirakı ilə regionlardakı teatr-tamaşa və konsert müəssisələrinin fəaliyyəti ilə bağlı keçirilmiş müşavirədə bu sahə üzrə müəyyən edilmiş prioritet istiqamətlərə həsr olunub.

Tədbirdə regional idarənin, Mingəçevir Dövlət Dram Teatrının, mədəniyyət mərkəzlərinin rəhbərləri və əməkdaşları iştirak ediblər.

Bildirilib ki, son illər Azərbaycan teatr sənətinin inkişafı yönündə bir sıra dəyərli addımlar atılır. Həyata keçirilən festival və müsabiqələr, eləcə də qastrol səfərləri bu sahədə canlanma yaradır. Sahənin davamlı inkişafı üçün zəruri addımlarla bağlı fikir mübadiləsi aparılıb.

# Mirzə Cəlilin "Hekayələr" kitabının oxusu təşkil olunub



Quba-Xaçmaz RMİ-nin tabeliyindəki Quba rayon MKS-nin Mərkəzi Kitabxanasının Uşaq şöbəsi tərəfindən Quba şəhər "Günəş" körpələr evi-uşaq bağçasında görkəmli yazıçı-dramaturq, naşir Cəlil Məmmədquluzadənin (1869–1932) 155 illiyi ilə əlaqədar "Hekayələr" kitabının ucadan oxusu keçirilib.

Tədbirdə kitabxana əməkdaşları, bağçanın müəllim və tərbiyəçiləri, körpə fidanlar iştirak ediblər. Çıxışlarda mütaliənin əhəmiyyəti qeyd olunub. Bildirilib ki, kitab oxumaq dünyagörüşümüzü genişləndirir, bizə yeni fikirlər, məlumatlar qazandırır.

Daha sonra balacalara Cəlil Məmmədquluzadənin "Quzu", "İki alma" hekayələri oxunub. Uşaqlar onlara verilmiş sualları cavablandırıblar.

# Ölkəmizdə etnik azlıqların mədəni irsinin qorunması diqqətdə saxlanılır




Fevralın 12-də Astara rayon Heydər Əliyev Mərkəzində "Etnik azlıq və qrupların mədəni irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi" mövzusunda tədbir keçirilib.

Mərkəzin baş fond mühafizi Elza Kazımova bildirib ki, Azərbaycanda tarixən bütün xalqlara, milli azlıqlara və etnik qruplara eyni normal münasibət bəslənilib. Dövlət tərəfindən atılan məqsədyönlü addımlar dinindən, millətindən asılı olmayaraq, Azərbaycan xalqının bütün dövrlərdə mehriban ailə, dost, qardaş olaraq yaşamaq ənənələrini daha da möhkəmləndirib.

Tədbirə qatılan şagirdlərin mövzu üzrə sualları cavablandırılıb. Sonda iştirakçılar mərkəzin elektron kitabxanasında saxlanılan kitablardan təşkil olunmuş sərgiyə baxıblar.

# 30 yaşlı "Bir dəlinin qeydləri"

## Gənc Tamaşaçılar Teatrının kiçik səhnəsində yubiley





Belə idi o məsəl, deyəsən: ağıllı olub dərd çəkməkdənsə, dəli ol, dərdini çəksinlər. Bilmirəm, bunu kim və hansı vəziyyətdə fikir kimi ortaya ataraq, el məsələsinə çevirib, amma düz edib. Bunu ötən həftə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında bir daha yəqin etdik. Ağıllı olmaq zülm işidir. Sadəcə, dəli olmaq həddinə gələnə qədər...

Fevralı 9-da teatrın kiçik səhnəsində rus yazıçı-dramaturqu Nikolay Qoqolun "Dəlinin gündəliyi" əsəri əsasında hazırlanmış "Bir dəlinin qeydləri" monotamaşasının 30 illiyi qeyd olundu. Əslində, tamaşa özü də bir aktyorun oyunu üçün 30 il böyük biz zamandır. Mütəmadi dəyişən tamaşaçı tələbləri fonunda formalaşan repertuarda teatrın ən qocaman səhnə aktı kimi, özü də müasir və arzulanan tamaşa olaraq qalmaq, yerli tamaşaçı, xarici festival üçün üz ağartmaq həm tamaşa, həm də aktyor üçün uğurdur. Üstəlik, quruluşçunun ustalığının mürəkkəb səhnə həllini usanmadan 30 il çiyinlərində daşımaq aktyordan böyük şövq tələb edir ki, bu da Şövqi Hüseynovda mükəmməl alınır.

İlk dəfə 1994-cü ilin oktyabr ayında Xalq artisti Cənnət Səlimovanın quruluşunda teatrsevərlərə təqdim olunan tamaşa 30-cu yubiley nümayişində də özünün haqq etdiyi alqış payını aldı.

Nümayişdən öncə tamaşaçı qarşısına çıxan teatrın truppa rəhbəri Ələsgər Muradxanlı səhnə işinin yaranma tarixindən, qazandığı uğurlardan, festival yolundan söz açdı. 30 il Poprişin obrazını ustalıqla yaradan Əməkdar artist Şövqi Hüseynovu və yaradıcı heyəti təbrik etdi.

Yarıqaranlıq səhnədə – psixiatriya xəstəxanası palatasında kiçik dəftərxana məmurunun əzablarına tam bir saat yenidən, bu dəfə də başqa ruh qatında tamaşa elədik.

Kimimiz güldük, kimimiz də köks ötürdük. Amma sonda hamılıqla öz müdirinin qızına vurulan və bu mümkünsüz eşqdən getdikcə ağlını itirən qəhrəmana acıdıq.

Zaman-zaman "Dəlidən doğru xəbər" təəccübündə gah itlə danışan, gah özünü İspaniya kralı zənn edən, gah da gündəliyə "43 aprel 2000-ci il" kimi absurd tarix qoyan məsum-ağıllı dəliyə məftun olduq.

Beləcə, tamaşa boyu böyük arzulu kiçik adamın dəlilik, daha doğrusu, onu dəli edən reallıqlar içərisində can çəkişməsini, əzablı çırpınışlarını və kədərli yalvarışlarını təəssüflə izlədik.

Tamaşa boyu ağzına və ağlına gələni üyüdüb tökən dəlinin son cümlələri 50-ni yola salan Ş.Hüseynovun yanağından süzülən yaşlara qarışıb, susqun zala buz kimi səpələndi: "Uzaqlardan yavaş-yavaş görünən bu ev mənim evimdir, yoxsa? Bəs pəncərənin qarşısında oturan qadın? Anamdır, yoxsa? Əziz anam, qurtar bu qərib oğlunu! Bir göz yaşı damlası tök və söndür ürəyimdəki yanğını! Bax, nələr çəkdirirlər balana! Məni qoynuna al, ana! Ona bu dünyada yer yoxdur artıq! Sənin balanı hər yerdən qovurlar. Əziz anam, bu yazıq balana heç bir mərhəmət göstərən yoxdur. Heç olmasa, barı sən mərhəmət et!".

Boz və nəhəng dünyanın soyuq xəstəxana palatasında buz kimi su ilə "müalicə" olunan Poprişinin yerində olmamaq, ağ xəstə əlbəsəsində bağrı yarılan çarəsizdən qaçmaq və bu reallığın, sadəcə, indi, burada – yəni ancaq səhnədə olub-bitəcəyinə inanmaq istəyən bütün məsum insanlar kimi salondakılar da alqışı gur edib daha bir dəlidən "qurtuldular".

İşıqlar yandı və "Çox sağ olun ki, 30 ildir bu tamaşanı və bizi belə sevgi ilə izləyib, içimizdəki sənət arzularımıza qol-qanad verirsiniz" deyən Şövqi Hüseynov göründü…

**Həmidə**

# Dövlət Mahnı Teatrında Mübariz Tağıyevin konserti

Fevralın 9-da Rəşid Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında Xalq artisti Mübariz Tağıyevin solo konserti keçirildi.

Konsert boyu tədbirin aparıcısı Rahib Azəri görkəmli müğənninin yaradıcılığından söz açdı. İfaçının Azərbaycan estrada sənətində rolundan danışaraq səsindəki həzinliyin insanlara xoş duyğular bəxş etdiyini dedi. Qeyd olundu ki, Mübariz Tağıyevin ifa etdiyi mahnılar insanların həyat nəğmələri kimidir: "Bu musiqilər həm şad, həm də yurdun, ölkənin ən ağır günlərində xalqı qələbəyə səsləyən mahnılardır. "Qalx, qalx, ulu torpaq!"la biz Ali Baş Komandan, Prezidentimiz İlham Əliyev ətrafında birləşərək işğal acısını dəf etdik, qalib gəldik. Bu gün xalqımız Qələbə qazanmış ölkənin vətəndaşları kimi bizi daim irəli aparan qüvvənin ardınca gedir".

Daha sonra Mübariz Tağıyev səhnəyə çıxaraq böyük sənətkar Rəşid Behbudovla 20 il çiyin-çiyinə çalışdığını dedi. O, Xalq artisti Rafiq Babayevlə bağlı da xatirələrini bölüşdü.



Azərbaycanın bütövlüyünü bərqərar edən Ali Baş Komandan, Prezident İlham Əliyevə dərin minnətdarlığını bildirən müğənni ilk olaraq "Vətən" mahnısını ifa etdi. Xalq artistinin bir-birindən parlaq ifalarının təqdim olunduğu konsert proqramı alqışlarla qarşılandı.

Musiqi axşamında Mübariz Tağıyevin sənət dostları – Xalq artistləri Cavan Zeynallı, Sərxan Sərxan, müğənnilər İlhamə Qasımova və Sabir Əliyev onunla eyni səhnəni bölüşdülər.

**Lalə Azəri**

# "Yuğ"çuların "21:15 qatarı" iki heyətlə hazırlanır

Dövlət Yuğ Teatrında "21:15 qatarı" tamaşasının məşqləri davam edir. Səhnə əsəri türk müəllif Toyqun Orbayın eyniadlı pyesi əsasında, iki heyətlə hazırlanır.

Birinci heyətdə Xalq artisti Məmmədsəfa Qasımov, Əməkdar artistlər Fərhad İsrafilov, Sonaxanım Mikayılova, Gülzar Qurbanova iştirak edirlər. Digər heyətdə isə aktyorlar Vüqar Hacıyev, Elgün Həmidov və Zümrüd Qasımovanın adı var.

Qeyd edək ki, apreldə premyerası gözlənilən tamaşanın quruluşçu rejissoru Mikayıl Mikayılov, quruluşçu rəssamı isə Mustafa Mustafayevdir.

Bundan əlavə, teatr növbəti dəfə Matey Vişnekin yaradıcılığına müraciət edib. Əsasən birpərdəli pyesləri ilə məşhur rumın dramaturqun "Panda ayılarının Frankfurtda rəfiqəsi olan saksofonçunun danışdığı macəraları" "Yuğ" səhnəsinə "P.A.N.D.A" kimi çıxacaq.

Hazırda oxunuş mərhələsində olan əsərə teatrın baş rejissoru Mikayıl Mikayılov quruluş verir. İki aktyorluq birpərdəli oyunda rolları Oqtay Mehdiyev və Günəş Tegin ifa edirlər.

# Xalq artisti yubileyini səhnədə qeyd edəcək

Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının aktyoru Xalq artisti Fuad Osmanov 60 illik yubileyini tamaşaçıları ilə qeyd edəcək.



Martın 16-da özünün quruluş müəllifi və baş rol ifaçısı olduğu "Rok-n-rollun qürub çağı" tamaşasının premyerası ilə teatrsevərlərin görüşünə gələcək.

Musiqili tamaşanın quruluşçu rəssamı Əməkdar mədəniyyət işçisi Aleksandr Federov, geyim üzrə rəssamı Əməkdar mədəniyyət işçisi Olqa Abbasova, xoreoqrafı Mariya Dubovitskayadır.

Tamaşa rəqs studiyasında təsadüfən tanış olan ortayaşlı insanlar və onların münasibətlərindəki natamamlıq və bu fonda baş verən komik hadisələrdən bəhs edir.

Lirik komediyada qəhrəmanların intizar, səbirsizlik, ümid, özünəvurğunluq və əminlikləri və bunun sayəsində tənhalığa məhkum olmaları ön plana çəkilir.

# "Cadenza" orkestrinin yeni proqramı

Fevralın 20-də Beynəlxalq Muğam Mərkəzində "Cadenza" orkestrinin (Cadenza Contemporary Orchestra) növbəti konsert proqramı təqdim ediləcək.



"Kəsişən xətlər" adlı konsertdə bəstəkar Cəlal Abbasovun "Simli kvartet No2.", Bit Furrerin solo piano üçün "The Snow Has No Voice", Claud Debussinin solo fleyta üçün "Syrinx" və Artur Honegerin "Simfoniya No.2" əsərləri ifa olunacaq.

Konsertin solistləri Rəhilə Nəzərova, Samir Əsədov, Vəfa Kuznetsova, Rəna Rəhimova, Ərol Rzayev və Humay Qasımzadədir.

Qeyd edək ki, 2021-ci ildə yaradılan "Cadenza" orkestri (bədii rəhbər Türkər Qasımzadə) Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində fəaliyyət göstərir.

# Görkəmli rus bəstəkarının 180 illiyi münasibətilə

Fevralın 9-da M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında dahi rus bəstəkarı Nikolay Rimski-Korsakovun (1844–1908) 180 illiyinə həsr olunmuş konsert keçirilib.



Konsertdə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin (bədii rəhbər və baş dirijor – Əməkdar artist Fuad İbrahimov) müşayiəti ilə solistlər – respublika və beynəlxalq müsabiqələr laureatları Fatimə Cəfərzadə (soprano) və Mahir Tağızadə (bariton) çıxış ediblər. Bu dəfə dirijor pultu arxasında Xalq artisti Yalçın Adıgözəlov olub.

Proqramda bəstəkarın "Şəhrizad" simfonik süitası (op.35), "Mlada" opera-baletindən "Yürüş", "Çar gəlini" operasından "Marfa və Qryaznoyun ariyası" və "İspan kapriççiosu" (op.34) əsərləri səsləndirilib.

Heydər Əliyev – 101

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçmələrin dərcini davam etdiririk.

## İllərin xronikasından (99)

### 2002-ci il 30 may

Prezident Heydər Əliyev təsviri sənət xadimlərinə fəxri adların verilməsi haqqında fərman imzalayıb.

"Xalq rəssamı" fəxri adı alanlar: Kamal Ələkbərov, Hüseynqulu Əliyev, Altay Hacıyev, Fərhad Xəlilov, Fazil Nəcəfov, Cabbar Qasımov, Ağa Mehdiyev, Cəmil Müfidzadə, Cahangir Rüstəmov, Fuad Salayev.

"Əməkdar incəsənət xadimi": Ağəli İbrahimov, Akif Əsgərov, Cəlil Hüseynov, Rafiq Kərimov, Sara Namitokova-Manafova.

Bundan əlavə, 40 nəfərə "Əməkdar rəssam" fəxri adı verilib.

### 2002-ci il 9 iyun

Sankt-Peterburqa səfəri zamanı Rusiya Prezidenti Vladimir Putinlə birlikdə dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsinin (heykəltaraş – Əməkdar rəssam Görüş Babayev) açılış mərasimində iştirak edib.

*"...Bu gün Sankt-Peterburqda dahi şair Nizaminin heykəlinin açılışını biz dünya mədəni irsinə böyük ehtiram ifadəsi, Azərbaycan xalqına bəslənilən dostluq və qardaşlıq hisslərinin təzahürü kimi qiymətləndiririk. Keçən il oktyabrın 12-də Bakıda rus poeziyasının dühası Aleksandr Sergeyeviç Puşkinə heykəl qoyulmuşdur. Bu gün isə burada, Puskinin Böyük Pyotrun əsəri adlandırdığı bu şəhərdə Nizamiyə heykəl ucaldılmışdır. Bu iki abidə həm xalqlarımızın mədəniyyətinə hədsiz ehtiramımızın, həm də ölkələrimiz arasında əlaqələrin yeni səviyyəsinin təcəssümüdür.*

*Bu şəhərin müdafiəçilərinin və sakinlərinin Hitler qoşunlarının hücumlarına qəhrəmancasına müqavimət göstərdikləri 900 gün ərzində dünya bir daha dərk etdi ki, qəhrəmanlıq hər şeydən öncə yüksək mənəviyyatın təzahürüdür... Bu mədəniyyətin möhtəşəmliyi özünü həm də mühasirə günlərində, Ermitajın soyuq salonlarında dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 800 illik yubileyi təntənəli şəkildə qeyd edilərkən büruzə verdi...*

*Nizami fəlsəfəsinin mərkəzində varlığın ən böyük sərvəti, mənəvi zənginlik və müdrikliyin tükənməz mənbəyi olan insan dayanır... Zənnimcə, məhz Nizaminin bütün əsərlərində bəşər övladının misilsiz qüdrətinin tərənnüm edilməsi sayəsində Azərbaycan xalqının dahi oğluna bu gün Sankt-Peterburqun təkrarolunmaz görkəminin ayrılmaz hissəsinə çevrilmək şərəfi qismət olmuşdur... Dahi humanist və mütəfəkkirə ucaldılan bu gözəl abidə həmişə bizim nəzərimizi ümumbəşəri dəyərlərə, xeyirxahlıq, ədalət ideallarına yönəldəcəkdir...".*

### 2002-ci il 11 iyun

Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında fərman imzalayıb. Fərmanda qeyd olunurdu ki, 10 noyabr 1997-ci il tarixdə Azərbaycan xalqı qarşısında böyük xidmətləri olmuş şəxslər üçün fərdi təqaüd təsis edilib və həmin dövrdən ümumilikdə 84 qocaman ədəbiyyat və incəsənət xadimi bu təqaüdə layiq görülüb. Bu fərmandan sonra həmin təqaüdlər Prezidentin fərdi təqaüdü ilə əvəzləndi. O dövr üçün bir milyon beş yüz min manat (300 AZN) məbləğində 150 fərdi təqaüd müəyyən edilmişdi. Sonrakı illərdə Prezident təqaüdünün məbləği də, sayı da artırıldı.

### 2002-ci il 18 iyun

Naxçıvana səfəri zamanı Bəhruz Kəngərli muzeyinin təntənəli açılış mərasimində nitq söyləyib.

*"...Bizim Mədəniyyət Nazirliyi, yaxud Dövlət İncəsənət Muzeyi Bəhruz Kəngərlinin əsərlərini fondlarda saxlayırdı... Amma mən fikirləşdim ki, onlar daha da yaxşı qorumalıdır. Yaxşı qoruyub saxlaya bilmirlər. Sən onu zirzəmidə, yaxud ayrı yerdə qoruyub saxlayırsan. Bəs, bizim vətəndaşlarımız, xalqımız Bəhruz Kəngərlinin yaradıcılığı ilə nə cür tanış olsun?! Hər halda, mən lazımi göstərişlər verdim. İndi çox şadam ki, burada muzey yaradılıb. Təbiidir ki, onun əsərləri çoxdur, hamısını buradakı muzeyə vermək olmaz. Onlar Azərbaycan dövlətinin milli sərvətidir, bunlardan istifadə etmək lazımdır. Amma dövlət bunları qoruyub saxlamalıdır.*

*Bəhruz Kəngərli Azərbaycan xalqının professional rəssamlıq sənətində ilk rəssamdır, bunu açıq deməliyik... Birincisi, Tbilisidə professional rəssamlıq təhsili alıbdır. İkincisi də, iş təhsil almaqda deyil, bu, Bəhruz Kəngərlinin özünün fitri istedadı idi. Yadımdadır, mən həmin bu binada orta məktəbdə oxuyarkən Bəhruz Kəngərli haqqında oradan-buradan eşidirdik. Amma Bəhruz Kəngərlini üzə çıxaran, təbliğ edən yox idi... Bəlkə o vaxt hesab edirdilər ki, o, devrilmiş sinfin, yəni bolşeviklər tərəfindən devrilmiş sinfin nümayəndəsidir. Ancaq onu bilirəm ki, Bəhruz Kəngərli haqqında gənc vaxtımda eşitmişdim. Çünki mən özüm də rəssamlıqla maraqlanırdım, rəsm əsərləri çəkirdim...*

*Sonralar mən Azərbaycanda sizə məlum olan vəzifələrdə işləyəndə bir neçə dəfə göstərişlər vermişdim ki, araşdırın, Bəhruz Kəngərlinin əsərlərini gətirin. Amma nədənsə, hər dəfə bu belə qalırdı. İndi, nəhayət, biz Bəhruz Kəngərlini üzə çıxardıq. Yəni, üzə çıxardıq sözü dəqiq deyil, o, onsuz da yaratdığı əsərlərə görə bizim mədəniyyətimizdə, incəsənətimizdə öz yerini tutmuşdur. Amma onun əsərlərini elə "dərin quyuya" salmışdılar ki, insanlar onu o qədər də yaxşı tanımırdılar.*

*Amma onun əsərləri həddindən artıq qiymətlidir. Birincisi, onun rəssamlıq ustalığına görə, istifadə etdiyi rənglərə görə. İkincisi, onun yaratdığı obrazlara görə, xüsusən, 1918-1919-1920-ci illərin çətin dövründə bizim xalqımızın ağır vəziyyətdə olmasını öz əsərlərində əks etdiribdir... Hesab edirəm ki, bizim sənətşünaslar, tədqiqatçılar Bəhruz Kəngərlinin yaradıcılığını daha professional səviyyədə tədqiq etməli, əsərlər yazmalıdırlar... Bu muzeyin yaranması təkcə Naxçıvandakı tədqiqatçılar üçün yox, bütün Azərbaycan tədqiqatçıları üçün böyük imkanlar yaradacaqdır...".*

**Hazırladı: V.Orxan**

*(davamı var)*

№12 (2077)
14 fevral 2024
www.medeniyyet.az

# Azərbaycan qızıyam...

## Nisə Qasımova: “Bənövşə” uşaq xorunda fəaliyyətimi ömrümün ən gözəl illərindən sayıram”

Səhnədə bir başqa idi. Gözəl, zərif, cazibədar, dinamik və səmimi. İndi o zamanın lent yazılarına baxanda bu qədər sevilməsinin səbəblərini axtarır və saydığım səbəblərdən daha çox biri üzərində dayanıram: səmimiyyət. Bəli, o, dövrünün musiqi sənətinə, ifaçılıq sahəsinə münasibətini, onunla eyni zamanda səhnədə olanlardan fərqini səmimiyyəti ilə göstərdi. Sözsüz ki, tamaşaçı da bunu duydu və beləcə, o, xalqın sevimlisi olmağı bacardı.
İndi inanılması çətin olsa da, yaşının 70-ci dayanacağındadır bu sarısaçlı, mavigözlü Azərbaycan qızı. Özü də bütün yaşantılarına, itki və ağrılarına rəğmən yenə nikbin, sevgi və səmimiyyət dolu. Bu mənada, “İnsan 7-sində nədirsə, 70-ində də odur” deyimi yerindəymiş. Deyə bilmərəm, o, yeddisində necə olub, amma 70-ində çox məhrəm və dürüstdür.



Həmsöhbətimiz Xalq artisti, sevilən saysız mahnıların mahir ifaçısı, yaddaşımızda “Azərbaycan qızıyam” olaraq qalan, bu yaşında da gənclik eşqi sönməyən Nisə Qasımovadır.

*– Səhnəyə gəldiyiniz ilk vaxtdan özünəməxsusluğunuzu qorumağı bacardınız. Asan olmaz yəqin ki...*

– Öncə bütün oxucularınızı salamlayıram. Allah bu görüşümüzü gözəlliklərə bağlasın. O ki qaldı sualınıza – mənəvi kimliyimi, sənətimin mövqeyini saxlamaq haqqında çox düşünmüşəm. Bunların hamısı ailədən qaynaqlanır. Demək, gördüyüm tərbiyədən asılıdır. İnsan bir mövqedə, bir istiqamətdə olar. Hər hansı bir işi görürsə, onu sonadək çatdırmağı bacarmalıdır. Mənim böyüklərim, valideynlərim də həmişə bir əqidədə olublar. Onu da deyim ki, mən gənc yaşlarında (gülür və fikrini yarımçıq saxlayır)... Elə düşünülməsin ki, mən bu günləri ahıl kimi danışıram. Əslinə baxanda, bu Nisə Qasımova hələ də özünü tam böyümüş, yetərincə inkişaf etmiş sanmır. Səbəblərini sonra deyəcəm. Nə yaxşı, mən hələ tam-tamına böyüməmişəm, o saflığı saxlamağa çalışmışam.

*– Yəqin sizə olan böyük sevginin kökündə də elə bu durur. İndi çoxları saflığı oynayır, bir obraza çevirir. Amma xalqın gözü tərəzidir.*

– Allah məni yaşıma, həyat tərzimə, yaşadıqlarıma görə həm də müdrikləşdirib. Uzaqgörənlikdən, təmkinli olmaqdan məhrum etməyib.

*– Həyat zaman-zaman zatən hamımızı sınağa çəkir. Amma, deyəsən, sizi daha çox incidib. Ötən bu illər keçmişi unutmaq üçün yetərli deyil?*

– Mən sənətə çox böyük həvəslə gəlmişdim. Riyakarlıqdan, xəbislikdən uzaq. Heç ağlıma belə gəlməzdi ki, sənət yolum belə ağır olacaq. Əgər bilsəydim, inanın, bu sənətə gəlməzdim, müğənni olmazdım. Qətiyyən! Çünki indi bir çoxları şou-bizneslə populyar olurlar.

*– Sizcə, bu populyarlıq vacibdir?*

– Baxır kimin üçün. Əsas odur ki, sevilmir, sadəcə, populyar olurlar. Bunlar başqa-başqa şeylərdir. Təəssüf ki, populyarlığa meyil sayəsində onların ardınca özləri kimiləri gəlir və böyük bir qaranlıq yaranır. Amma bizim dövrümüzdə, bizim mühitdə belə deyildi. O illərdə əgər rəqabət vardısa da, əsasən, sağlam zəmində idi. Ya da mənə elə gəlirdi...

*– Məsələn, o illərdə sağlam rəqabət necə idi?*

– “Adam da bir-birinə rəqib olar?” deyə düşünürdüm. Ya da hərənin öz yolu olduğunu deyirdim. Doğrudan da, hər kəsin öz səsi, öz sənəti, öz ifa üslubu vardı. Amma “sağlam rəqabət” sözünü belə qəbul eləmirdim. Rəqabət rəqabətdir. Sağlam, ya qeyri-sağlam. İnanın, rəqabət nədir, heç onu belə bilməzdim. Amma illər keçdikcə gördüm ki, bəli, sağlam rəqabət yaxşıdır. Gərək rəqibin düşmənçiliyə əl atmaya. İndi isə necədir? Beş gün dost olurlar, sonra da qatı düşmən. Yenə deyirəm, bilsəydim müğənni olmaz, özümü tam başqa peşədə sınayardım. Mən dolça bürcüyəm axı. Bu bürc altında doğulanlar istedadlı, bacarıqlı olurlar. Əminəm ki, hansı sahədə olsam, seçilərdim.

*– Vaxtilə “Bənövşə” uşaq xorunda “Günəş adlı yaxın dostum var mənim” adlı nəğməni ifa etmisiniz. Uşaqlıqdan günəşlə “dostluq” elə odla oynamaqdır...*

– (Gülür). Dinləyicilərdən bu sözləri eşitmək, xüsusən artıq uzaq görünən keçmişə boylanmaq məni elə kövrəldir ki. O illər düşdü yadıma, bir başqa oldum...

*– Təəssüf ki, musiqi sənətimizə neçə-neçə sənətkarlar bəxş edən o kollektiv artıq yoxdur. Amma yenə də gəlin, o illərə qayıdaq.*

– Mən də çox təəssüf edirəm. Elə güclü bir kollektivin dağılması məni incidir. O xorda fəaliyyətim məktəb illərinə təsadüf edir. Həmin dövrü də ömrümün ən gözəl illərindən sayıram. Orada solist kimi fəaliyyət göstərməyə çox utanırdım. Halbuki, mərhum Əfsər Cavanşirov mənim səsimi xor oxuyan zaman kəşf etdi və məni solist seçdi. O mahnı lentə alınan zaman bərk xəstələnmişdim. Xəstə vəziyyətimlə oxusam da, maraqlı alındı. Kaş bir anlıq da olsa, həmin illərə dönmək imkanım ola... Əslində, çox utancaq idim. Demirəm ki, nədənsə çəkinəcəyim vardı. Yox, sadəcə, özümü gözə soxmağı, layiq olduğum halda ön planda olmağı istəməmişəm. Elə indinin özündə də...

*– İndi buna görə özünüzü qınamırsınız ki?*

– Düşünürəm ki, düz eləmişəm. Çünki insan gərək öz mənəvi kimliyini yaşasın.

*– Gəncliyinizdə fərqli səs imkanları və o zaman üçün yenilik olan dinamik səhnə rəqsləri ilə diqqəti cəlb edirdiniz. Halbuki həmin dövrdə televiziyanın öz ölçü-biçisi vardı. Bu mənada, hər hansı maneə olurdumu?*

– Uşaqlıqdan rəqsə böyük marağım vardı. Bacımla Y.Qaqarin adına Pionerlər evinə (indiki T.İsmayılov adına Uşaq-Gənclər Yaradıcılıq Sarayı – red.) rəqsə gedirdim. Rəhmətlik Böyükağa Məmmədovun sinfinə. Sonra gördüm ki, oxumaq mənim üçün daha əsasdır və müğənniliyi davam etdirdim. O vaxt hesab edirdim ki, hər mahnı bir obrazdır, bir həyati hekayətdir. İfa zamanı bədən, əl-ayaq, üz-göz mahnının obrazını təqdim edir. O zamanlar deyirdilər ki, Nisə ifası ilə zərif bir plastika gətirdi. Nə gizlədim, bu fikir çox xoşuma gəlirdi. Düzdür, onda da oxu zamanı hərəkət edən müğənnilərimiz vardı. Amma mən seçilirdim. Sarı saçlarıma, mavi gözlərimə görə Tiflis konsertimdən sonra mənə “alman gəlinciyi” deməyə başladılar. Bu bənzətmə o zaman mənə qəribə gəlirdi. Sonra güzgüdə özümə baxır, özündənrazı adamlar kimi sevinirdim. Neyliyim, uşaq idim də (gülür). Buna baxmayaraq, mən daxilən gəlincik yox, yaşından irəli getmiş insan idim, sağlam düşüncələrim vardı. Amma qolqanadımı tez qırdılar. Təəssüflər olsun ki, indi də onu açıqlaya bilmirəm.

*– Yəqin, səbəb qovluğunuz qabarıqdır...*

– Çox. Tez-tez zərbələrə tuş gəlirdim. Psixoloji qadağalar, hətta tapşırıqlı maneələr olurdu deyə həqiqi potensialımı nümayiş etdirə bilmədim.

*– Məgər indi də qadağalar var?*

– Təbii ki, bu gün də gec deyil, insan səhnədədirsə öz bilik və istedadını göstərə bilər. Zatən göstərirəm də. Amma yaşantılarım artıq canıma bir virus kimi yerləşib. Bu da bir taledir və mən qismətə inanıb şükür etməyi bacarıram. Bizim ailəmiz – uşaqlarım da, nəvələrim də Allaha bağlı insanlarıq. Rəbbim bizə nə öyrədir – səbri və şükrü. İnsan özünün mövcud imkanlarına, bir də ətrafındakı imkansızlara baxıb qane olmalıdır. Bu təcrübələrdən keçəndən sonra, həqiqətən də, Allahın mükafatını gördüm.

*– Nə idi bu mükafat?*

– Məni sevənlərin səmimiyyətini, təbii və saf sevgisini gördüm. Bu, Yaradanın mənə bəxş etdiyi ömürlük sevincdir. Yaxşı ki, mən bir çoxlarının həyatını təkrar etmədim. Çox çətinliklərim olub və hamısı da dörd divarın içində qalıb. Bunu yalnız ən yaxın adamlarım bilib.

*– Tamaşaçı “alman gəlinciyi”nin “Azərbaycan qızıyam”ını daha çox sevdi...*

– Bu klip çəkiləndə həmin geyimdə çıxmağıma icazə vermirdilər. Sovet dönəmi idi də, dedilər kostyumda, ya da ağ köynək, qara ətəkdə olmalısan, yəni ciddi görkəmdə. Razılaşmadım, iki ayağımı bir başmağa dirədim ki, mən filan geyimdə olmaq istəyirəm. O zaman da məndə kreativ düşüncələr vardı. Yadımdadır, televiziyadakı bu məsələlərə məsul insana dedim ki, necə olur, Azərbaycan qızı kolxozçu, zəhmətkeş olub medallar ala bilər, xanım-xatın, zərif geyimdə görünə bilməz? İsrarla o geyimdə çıxıb qürurla “Azərbaycan qızıyam” mahnısını oxudum. Beləcə, məni yetişdirən, bu görkəmdə, vücudda qəbul edən torpağıma, vətənimə minnətdarlığımı bildirdim. Nə xoş ki, səsimlə yayımlanan bu mahnı illərlə mənə olan sevgini azaltmadı.

*– Yaradıcılığınızdan “Bayatı-Şiraz” muğamı da keçib. Səhv etmirəmsə, televiziyanın “qızıl fondu”na da daxil edilib. Niyə paralel davam etmədiniz, mahnı janrında qaldınız?*

– O vaxt çox istəyirdim ki, muğam və estradanı paralel davam etdirim. Baxın, bu gün bu iki istiqaməti birgə təqdim edən müğənnilərimiz var və sevilirlər. Müasir ritmlər, az sözlərdən ibarət mahnılar da var ki, muğam ifaçıları maraqla oxuyurlar. Bu mənada, Almaxanım Əhmədli daha çox seçilir. O, muğam, xalq, bəstəkar mahnıları ilə yanaşı, müasir tamaşaçıların zövqünə uyğun musiqilər də ifa edir. Belə adlar çoxdur. Mən də o dövrdə zamana görə həm muğamlar, təsniflər və eyni zamanda xarici ölkə bəstəkarlarının mahnılarını oxuyurdum. Amma məni o qədər “sındırdılar” ki. Yadımdadır, səsyazmada oxuduğum təsnifləri, mahnıların ortasındakı muğam parçalarını efirə vermir, hətta lent yazılarımı yoxa çıxarırdılar. Konsertlərimi, televiziya çıxışlarımı elə saatlara salırdılar ki, xəbərlər proqramına görə çox vaxt yarımçıq kəsilirdi. Çünki bu da məxsusi tapşırıq idi. Sadaladığım hallar mənə çox pis təsir edirdi. Amma yenə əyilmədim. Bu mənim xarakterimdə yoxdur. Odur ki, onda da, indi də yalnız irəli!

*– Amma Moskvada da bir neçə mahnınız lentə yazıldı. Bu o dövr üçün uğur idi?*

– Bəli, həmin illərdə SSRİ Dövlət Elektromusiqi Orkestrinin rəhbəri Vyaçeslav Mişşerinin dəvəti ilə Moskvaya getdim. Həmin orkestrlə birgə “Gül bir az”, “Gözləyəcəyəm”, “Leyla”, “Yadındamı”, “Eşqimi sönməyə qoymaram” kimi mahnılardan ibarət albomum lentə alındı, haqqımda məqalələr yazıldı. Çıxışım məşhur nəğməkar şair Nikolay Zinovyevin də gözündən yayınmadı, haqqımda xoş sözlər dedi.

*– Siz “Leyli və Məcnun”un sənət həyatından da “ötəri keçmisiniz”. Yəqin, o dövrün populyar Leyliləri rəqib istəmirdilər...*

– Muğam operasının televiziya versiyasında müəyyən hissələri oxumuşdum. Tərəf-müqabilim də rəhmətlik Məmmədbağır Bağırzadə idi. Həmin dövrdə rejissor Mehdi Məmmədovun da diqqətini cəlb etdim, operanın yeni Leylisi kimi təklif də aldım. Amma məlum və naməlum səbəblərdən bu iş də baş tutmadı... Yenə keçmişə getdim və müəyyən xoş olmayan anları yenidən xatırlamış oldum. Müğənniyə oxumaq, yaxşı performans üçün ruh yüksəkliyi lazımdır. Onda arxayınlıq, rahatlıq təmin olunmalıdır. Amma mənim əlimdən artıq o gücü almışdılar. Bütün bunlara görə dəfələrlə xəstələndim, sonda da insult oldum. Düzdür, mən bunları hamıdan gizlədirdim. Amma çox yoruldum. İndi nisbətən rahatam, həm də sevincli. Çox şükür, qalib, azad, ərazi bütövlüyü təmin olunmuş ölkədə yaşayıram. Belə dövranda sənətdə olmaq, yaşamaq gözəldir. İnanın, bu da mənə yaşadıqlarımı unutdurmur.

*– Nisə xanım yubiley yaşını necə keçirir, indi nə edir?*

– Çalışıram ki, sağlamlığımı tam bərpa edim. Yeni neçə-neçə mahnılar təqdim olunub. Amma mən onlara məyus halda baxıram. Çünki oxuya bilmirəm hələ. O mahnıları gərək könüldən, candan ifa edim ki, ruhum, sevgim, duyğularım insanlara olduğu kimi çatsın. Axı mən oxuduğum hər bir mahnı ilə yaşayıram. Çalışıram tez sağalım və onları sevə-sevə oxuyum.

*– Yaş ötdükcə insan qazandıqları ilə itirdikləri arasında hesabat aparır. Amma sənət adamlarında bu hal başqa cür yaşanır: məsələn, sənətdə qalmağın səadəti hər hissə qalib gəlir.*

– İncəsənət adamı, istedad və qabiliyyəti varsa, sənətin istənilən istiqamətində hər zaman tanına bilər. Bilirəm ki, mənim içimdə bir müğənni, bir aktrisa, bir ana, bir nənə yenə də var. Ən əsası, dünyanın bütün övladlarını sevə biləcək məhəbbətdə ifaçı.

*– Sizin yaradıcılıq uğurlarınızda bəstəkar Ələkbər Tağıyevin böyük rolu var. Bu il həm də onun 100 illiyidir. Zamanın pəncərəsindən baxanda onu necə xatırlayırsınız?*

– Ələkbər müəllim çox böyük istedad sahibi idi. O təkcə bəstəkar yox, həm də dəyərli şəxsiyyət idi. Onun şairlik, bəstəkarlıq, ən əsası da müğənni yetişdirmək üçün böyük gücü vardı. O zamanlar prodüserlər, menecerlər yox idi. Bəstəkarlar mahnıları yazır, hansı müğənniyə uyğundursa, ona verirdilər. Amma Ələkbər Tağıyev müğənni yetişdirir, onu qoruyur və yüksək tuturdu. Çox təəssüf edirəm ki, yetişdirdiyi müğənnilərin bir çoxu bu günədək onun adını dillərinə gətirmirlər. Halbuki, bu gün mənəm-mənəm deyən müğənnilərin çoxu Ələkbər Tağıyevə minnətdar olmalıdır. Allah ona rəhmət eləsin.

*– Dinləyicilərinizin hər ovqatına uyğun neçə-neçə mahnılar ifa etmisiniz. İndi daha çox hansı mahnılarınızı zümzümə edirsiniz və hazırda ruhunuz hansı laddadır?*

– Səsimdən çox narazı və nigaranam deyə heç nə ifa etmirəm. Yeri gəlmişkən, həkimim, loqoped-defektoloq Esmira Qafarova olmasaydı, bəlkə heç danışa da bilməzdim. Onun sayəsində sağaldım. İndi də müalicəm davam edir. Səbirlə oxuyacağım zamanı gözləyirəm...

**Söhbətləşdi:**
**Həmidə Nizamiqızı**

# Maşinist köməkçisindən səhnə və ekranların sevimlisinə...

Azərbaycanda milli kinematoqrafiya və səhnə sənətinin inkişafında əməyi olan aktyorlardan biri də Xalq artisti Muxtar Avşarovdur. Görkəmli sənətkar səhnədə və ekranda yaratdığı obrazlarla böyük tamaşaçı sevgisi qazanıb. Unudulmaz aktyoru anadan olmasının 110 illiyi münasibətilə yada saldıq.

Muxtar Həsən oğlu Avşarov 16 fevral 1914-cü ildə İrəvan şəhərində dünyaya göz açır. Uşaq ikən erməni millətçilərinin soydaşlarımıza qarşı həyata keçirdikləri qırğınların şahidi olur. Avşarovlar ailəsi itkilərə məruz qalır, mənəvi sarsıntı yaşayırlar. Bu ağlasığmaz faciə Muxtarın qəlbində dərin iz buraxır. Çətin vəziyyətə düşən ailənin salamat qalan üzvləri Türkiyəyə pənah aparır. Bir müddət sonra geri dönür və Gəncə şəhərində məskunlaşırlar. Muxtar 1922-ci ildə Gəncə şəhərində dəmiryolçular məktəbində təhsilə başlayır. Orta təhsilini başa vurduqdan sonra babasının təşəbbüsü ilə sənədlərini Bakıda peşə məktəbinə verir. O, asudə vaxtlarında Dəmiryolçuların Mədəniyyət evinə gedir. Ağasəlim Manaflının dram dərnəyində aktyor kimi səhnəyə çıxır. Çox keçmir həmin dərnəyə görkəmli aktyor Ülvi Rəcəb rəhbərlik edir. M.Avşarov ilk sənət təhsilini ondan alır. 1933-cü ildə peşə məktəbini bitirir və Gəncəyə qayıdır. Şəhərin parovoz deposunda maşinist köməkçisi kimi işə düzəlir. Eyni zamanda “Dəmiryolçular teatrı”nda aktyor olaraq fəaliyyətini davam etdirir, Həbib İsmayılov və Rza Sarabski kimi rejissorların hazırladıqları bir neçə tamaşada baş rollarda çıxış edir.





Onun teatra həvəsi rəhbərliyin diqqətini çəkir. 1936-cı ildə Moskvaya iki aylıq mədəni-maarif kursuna göndərilir. Kursu bitirdikdən sonra Gəncə Mədəniyyət evində kütləvi işçi vəzifəsinə təyin edilir. Bir müddət sonra Gəncə Dövlət Dram Teatrına dəvət olunur. Cəlil Məmmədquluzadənin “Ölülər” əsərində Hacı Kazım rolunda ilk dəfə peşəkar səhnəyə çıxır. Sonralar Səməd Vurğunun “Vaqif”, Cəfər Cabbarlının “Nəsrəddin şah”, “Yaşar”, “1905-ci ildə”, “Almaz” tamaşalarında rol alır.

1941-ci ildə faşist Almaniyasının SSRİ üzərinə hücum etdiyi vaxtlarda ictimai yerlərdə Gəncə şəhərinin adının dəyişdirilərək “Kirovabad” qoyulmasına və Gəncə teatrının Lavrenti Beriyanın adını daşımasına etiraz edir. Buna görə də həbs edilir. Beş il həbs cəzası çəkdikdən sonra azadlığa buraxılır, teatra qayıdır. Həmin vaxt Gəncə teatrında S.S.Axundovun “Eşq və intiqam” əsəri tamaşaya qoyulur və ona tapşırılır. Tamaşanın nümayiş olunduğu günün sabahısı aktyor işdən azad edilir. Səbəb isə sadə idi – o, ictimaiyyət arasında olmamalıdır.

Bir müddət işsiz qalan M.Avşarov dəyirmanda fəhlə işləyir. Stalinin ölümündən (1953) sonra yenidən Gəncə teatrında fəaliyyətini davam etdirir. 1960-cı ildə “Əməkdar artist” fəxri adına layiq görülür. Görkəmli sənətkar 1968-ci ildə Azərbaycan Dövlət Akademik Dram Teatrına dəvət olunur və qısa müddətdə kollektivlə qaynayıb-qarışır.

Onun aktyor məharəti kinorejissorların diqqətindən yayınmır. Kinoya gəlişində görkəmli rejissor Hüseyn Seyidzadənin xüsusi rolu olub. Bu barədə xatirələrində deyirdi: “1960-cı il idi, Gəncə teatrında çalışırdım. Bir gün mənə dedilər ki, səni Bakıdan gələn Hüseyn Seyidzadə soruşur. Getdim, xoş-beşdən sonra rejissor mənə dedi ki, səni “Yenilməz batalyon” filminin sınaq çəkilişlərinə çağırmışam. Məni “uryadnik” və bandit rolunda yoxladı. Sonra məlum oldu ki, bandit roluna təsdiq olunmuşam...”.

M.Avşarov çəkildiyi filmlərdə kaskadyor işlərinin öhdəsindən də məharətlə gəlib. “Dəli Kür” filminin çəkilişlərini belə xatırlayıb: “Filmdə çətin tryuklar var idi. Bunun üçün də Moskvadan kaskadyorlar dəvət olunmuşdu. Gününə 50 rubl verilirdi. Bir gün rejissora dedim: “Hüseyn (Seyidzadə – red.), qadan alım, mən kəndli balasıyam. At sürməyi çox gözəl bacardığım üçün kaskadyorun işini də yerinə yetirə bilərəm. Necə olur ki, mənim günümə 25 rubl verirsən. Ancaq kaskadyorun gününə – bir dəfə atdan hoppanmağına 50 rubl verirsən. Bir halda ki, bacarıram, onun işini mən görə bilərəm”. Cavabında belə dedi: “Mən aktyora kaskadyor işini gördürə bilmərəm. Axı bunun yıxılmağı da var. Yıxılıb zədələnsən, sənin öz işini kim görəcək”. Beləcə, imkan vermədi. Ancaq mən də özümə görə olmamışam. Çəkiliş vaxtı fasilə elan olundu. Hüseyn Seyidzadə dincəlməyə getdi. Bundan istifadə edərək mənimlə çəkilən tərəf-müqabillərimin yanına gəldim. Dedim ki, bəs, mən atımı minib çapacağam. Siz də o zaman Hüseyn Seyidzadəyə xəbər verin. Operatora da əvvəlcədən xəbərdarlıq etdim ki, atla edəcəyim tryuku çəkər və mənə verərsən... Mən atı sürətlə çapmağa başladım. Hüseyn Seyidzadəyə yaxınlaşan zaman atı yıxdım. Özüm də ondan bir neçə metr aralı tullanaraq tüfəngi əlimə aldım. Bunu görən rejissor bərk hirsləndi və “pəhləvanlıq edirsən”, dedi. Rejissorun mənə acığı tutsa da, məndən incisə də, həmin səhnə lentə alındı. Vaxt gəldi, çəkiliş başa çatdı. Film Moskvaya aparıldı. Ancaq film qəbul edilmədi. Filmin finalının dəyişdirilməsi tapşırıldı. H.Seyidzadə geri qayıdan kimi dedi ki, sən mənə lazımsan. Məlum oldu ki, həmin lentə aldığımız səhnə ilə maraqlanır. Bir sözlə, həmin səhnə “Dəli Kür” filminin final səhnəsinin yerinə calaq edildi. Guya ki, mən atəş açmaqla Cahandarı öldürürəm. Təbii ki, Cahandarın ölüm səhnəsi ayrıca olaraq çəkildi”.

Beləliklə, M.Avşarov səhnə uğurlarını kino sahəsində də təkrarlayır. O, “Sevil” (film-opera; 1970), “Ulduzlar sönmür”, “Axırıncı aşırım”, “Qatır Məmməd”, “Tütək səsi”, “Arxadan vurulan zərbə”, “Birisigün, gecəyarısı”, “Atları yəhərləyin”, “Qəm pəncərəsi”, “Kişi sözü”, “İşarəni dənizdən gözləyin”, “Qətl günü” və s. filmlərdə yaddaqalan obrazlar qalereyası yaradır.

Ömrünün müdrik çağlarında aktyorun yolu yenidən teatrdan düşür. 1992-ci ildə Xalq artisti Amaliya Pənahova sənətkarı Bakı Bələdiyyə Teatrına dəvət edir. Teatrda işlədiyi müddətdə o, N.Nərimanovun “Nadir şah”, C.Cabbarlının “Dönüş” və bir çox tamaşalarda maraqlı obrazlara həyat verir. 2002-ci ildə Bakı Bələdiyyə Teatrının aktyoru kimi “Xalq artisti” fəxri adına və Prezidentin fərdi təqaüdünə layiq görülür.

Muxtar Avşarov 6 dekabr 2004-cü ildə, 90 yaşında vəfat edib.

**Savalan Fərəcov**

# Sən kimin qadınısan?

Əslində, Azərbaycan Dövlət Akademik Musiqili Teatrının ötən ayın sonlarında premyerasını etdiyi "Qadınım" tamaşası haqqında yazmaq fikrim yox idi. Səbəbsə sadəydi: tamaşanın ideya yükü və cəmiyyətə mesajı bəsit və subyektivdir. Amma sonra fikrimi dəyişdim. Çünki hər zaman yaxşı işləri görüb, müsbət rəylər yazmaqla iş bitmir. Tənqid olmadıqda inkişaf ləngiyir və teatr, səhnə, sənət adına görülən işlərdə yeknəsəqlik, şəxsi zövq və yanaşmanın ictimai rəy kimi təqdim cəhdləri boyu aşır...



## "Qadınım" deyir ki...

Tamaşa türk yazıçı-dramaturqu Tuncər Cücənoğlunun "Matruşka" pyesi əsasında hazırlanıb. Musiqili melodram kimi təsnifatlandırılan tamaşanın quruluşçu rejissoru İradə Gözəlovadır.

Tamaşa haqqında məlumatdan: "Türk retro musiqilərinin canlı ifa olunduğu tamaşa sevgi və ehtiras dolu iki aşiqin öz hissləri uğrunda sona qədər mübarizəsindən bəhs edir. Tamaşada teatrın aktyorlarından Əmrah Dadaşov və Gültac Əlili, xor və balet heyəti iştirak edir. Plastik həll Əməkdar artist Nigar Şahmuradovaya aiddir, o həm də aktrisa kimi çıxış edir. Quruluşçu rəssam Vüsal Rəhim, xormeyster Məlahət Qasımova, musiqi tərtibatçısı Əmrah Dadaşovdur. Videogörüntüləri Murad Həsənov hazırlayıb".

...Müəlliflə bir neçə dəfə həmsöhbət olan jurnalist kimi deyim ki, Cücənoğlunun "Matruşka"sı (əsərin orijinal adı belədir) İradə Gözəlovanın səhnəyə gətirdiyi "Qadınım"ından çox-çox, bəlkə də min mil uzaqdadır.

Niyə? Sualı yadda saxlamaqla keçirəm balaca bir qeydə. Melodram elə musiqili dramdır deyə ona "musiqili" əlavəsi etmək artıqdır. O ki qaldı Akademik Musiqili Teatrın orkestri və balet truppasının, üstəlik, peşəkar xor truppasının da mövcud olduğu halda kabare üslubunda müşayiət və oxu manerasına (vokal artistindən daha çox hansısa restoranda məhdud alətlərin müşayiəti ilə burunda boğulan tembr), bu lap dərin yaradır!



Onu da qeyd edim ki, pyesin dili, yəni tərcüməsi bərbaddır. Dilin orfoepik qaydalarını yerə vurmaq bir yana, onun ifadə tezliyi və üslubiyyat məsəllərini bu qədər gözardı etmək hansı mərama xidmət edir?

Yazılarımın birində teatrşünas Məryəm Əlizadənin "Teatr: seyr və sehr" kitabından bir sitat gətirmiş və məsələnin üzərindən qısaca keçmişdim. Düşünürəm ki, "Qadınım"a teatrşünasın sistemləşdirdiyi bölgünü rəhbər tutaraq mahiyyətə daha dərindən varsaq, yaxşı olar.

M.Əlizadə deyir ki, "Poetikanın təcəssümü ədəbi əsas – dramaturq; zaman-məkanda gerçəkləşdirmə – aktyor; vizual təzahür – rəssam; musiqili dramaturgiya – bəstəkar, texnoloji təzahür – rejissor"da məhdudlaşır.

"Qadınım" tamaşası ilə bağlı bu əsas komponentin hər birini konkret məzmunla yükləsək, hansı mənzərə alınar?!

## Ədəbi əsas – dramaturq

Cücənoğlu bu əsərini 1994-cü ildə, yaşadığı dövrün reallığında, bir az da sərbəst, sadə, adi həyat hekayəti üzərindən qurub. Qəhrəmanlarımız iki nəfərdir. Qadın və Kişi. Kişi intellektual, bir az da qadınlara düşkün biridir. Amma ikinci xüsusiyyətini birincisi ilə daim ört-basdır edir. Kifayət qədər zövqlü və intellektualdır. Pyesi oxuyan zaman görürük ki, o, məşhur ssenarist, tanınan müəllifdir. Pyesin irəlidəki şəkillərində o, Qadın ilə ünsiyyətində klassik rus poeziyasından simfonik musiqiyə, dünya kinosundan ədəbiyyatdakı cərəyanlara, qısacası, sənətdən fəlsəfəyə istənilən mövzularda bilgili və zövqlüdür. Qadın da tərəf-müqabilindən geridə deyil. Məsələn, Maksim Qorkinin üslubunu, Avstriya bəstəkarlarının musiqi əsərlərini, belə demək mümkünsə, zövq və dünyagörüşünü səxavətlə nümayiş etdirən fərddir.

Rejissorun bizə təqdim etdiyi isə bütün planları qadınları yatağa atmaq olub, onları mütəmadi dəyişməyi həyatının rəngi hesab edən tipik şorgözdür. O, ailəsində bədbəxtdir. Çünki artıq arvadını sevmir, sadəcə, qızı var deyə ona – yəni arvadına məhkumdur. Qısacası, İradə xanımın təqdim etdiyi Kişi ərgənliyini tamamlamadan "böyüyüb", içindəki bığ yeri təzə tərləyən oğlandan qurtula bilməyən bədbəxt, bir az da bəsit Don Juan olmaq istəyən Kişidir.

Qadın isə yaşı keçdiyinə görə qarşısındakı bütün kişiləri birinci potensial ər, doğacağı uşağa ata kimi görmək istəyən, əslində, çarəsizlik oynayan çoxbilmişdir. Gözəldir, cazibədardır. Amma həm də əsərdəkindən çox dayaz təqdim olunan tipik yüngül Qadındır. Məhz buna görə də biz sona qədər onun ağrı və faciəsini anlaya bilmirik. Üstəlik, o, özü ikinci olmağı asanlıqla qəbul edib. Nəticədə biz nə Qadına acıya, nə Kişiyə inana, nə də ikilinin arasındakı əsas qurban olan Anaya ayrılıqda ifadə imkanı verə bilir.

## Zaman-məkanda gerçəkləşdirmə – aktyor

Əmrah Dadaşov və Gültac Əlili teatrın aparıcı aktyorlarından hesab olunurlar. Onların bundan əvvəl də bir neçə tamaşada fərqli oyun imkanlarını görmüşəm. Amma bu tamaşada məhz mərkəzdə idilər deyə qüsurları, aktyor kimi plastikalarından səs-oyun imkanlarına natamamlıqları öndə olduğu üçün tez diqqət çəkdi.

Doğrudur, onu da anlamaq olar ki, obrazına görə G.Əlili özünü cəsarətli, seçilən hesab edə bilər və bu eyforiyada oyununu unuda bilər. Amma xatırladım ki, Azərbaycan səhnəsində ondan əvvəl də bu cəsarəti edib, kifayət qədər estetik həlli bacaran aktrisalarımız var. Düzdür, ideya və quruluş ustalığı baxımından bu müqayisəni doğru saymıram, amma, məsələn, Mehriban Ələkbərzadənin səhnəyə qoyduğu "Qatil"də (müəllif: Elçin) Əməkdar artist Münəvvər Əliyeva qəhrəmanının faciəsini içindən keçirərək təsirli oyun nümayiş etdirmişdi.

Yaxud xanım rejissorun ustadı Vaqif İbrahimoğlunun illər əvvəl səhnəyə qoyduğu "Canımda can"da da var. Tamaşada hələ onda 2-ci kurs tələbəsi olan istedadlı, zərif və cazibədar aktrisamız Zümrüd Qasımova əsas rolu – Qadını oynayırdı. O, bir epizodda, demək olar ki, tam soyunurdu. Amma bu hal nə onda, nə də indi qeyri-əxlaqi, qeyri-estetik görünüb səslənmədi. Niyə? Çünki Vaqif müəllimin məramı aktrisanı çılpaq göstərməklə "vau" qazanmaq yox, tamaşaçını batinə varmaqla, mahiyyətlə təsvir arasındakı pərdəni götürmək idi.

Gələk Ə.Dadaşova. İnsafən, ifası, belə demək mümkünsə, lirik məhəbbət nəğmələrini təsirli oxu manerası baxımından qulağa xitab etdi. Amma biçimsiz oyunu sayəsində gözümüzə "girə" bilmədi. Xüsusən rəqsləri və bəzi mizanlarda bədən dilinin ifadəsindəki təcrübəsizliyi kobud görünürdü. Bunu G.Əliliyə də aid etmək olar. Yenə də mizana görə tez-tez o tərəf - bu tərəfə qaçan Qadın yaşının və bədənin gəncliyini unudub, hey çiyinlərini önə əydi, ayaqlarını rabitəsiz tappıldatdı. Beləcə, göstərmək istədiyi ehtiraslı Qadını tez-tez eynəyini irəli itələyən katibə ladına köklədi.

Bundan sonra "nə" və "necə"lik ətrafında fırlanan mənzərə ortaya çıxırsa, deməli, zəhmət çəkib ya mükəmməl olmalısan, ya da adekvat.

## Texnoloji təzahür – rejissor

Novatorçuluq, yaxud sənətdə azadlığın ifadə üsulundakı müxtəlif variasiyalar üzərində hər hansı qanunauyğunluq axtarmaq indiki vəziyyətdə heç nə vəd etməyə bilər. Amma və lakin məsələyə ciddi, bir az da dövrün estetik baxış bucaqlarındakı fərdilik (bunu da diktə edən təqdim olunan əsərin müəllifidir) amilində rejissura vacib, əsas punktdur. Digər dörd məqam isə, sözsüz ki, üzvi surətdə ona bağlıdır. Məsələn, musiqi həllindən aktyor oyununa, tərtibatdan ədəbi materialın səhnədə təzahür formalarının legitimliyinə əsas yük, lokomotiv rejissordur.

Bu məqamda məsələyə bir az Stansilavskinin gözü ilə baxaq. Məsələn, o deyirdi: "Heç bir rejissorun ixtiyarı yoxdur ki, müəllifin fikrini xırdalasın, onu süni şəkildə özünün uydurduğu konsepsiyaya uyğunlaşdırsın, pyesin üslub xüsusiyyətlərini bir tərəfə atıb, tamaşanı yad ünsürlərlə zibilləsin". Mübahisəli, amma həm də maraqlı fikirdir. Ələlxüsus da rejissorun "Matruşka"dan düzəltdiyi "Qadınım"a nisbətdə. Belə ki, tamaşaçı ədəbi mətnin səhnə realizəsində daha çox ideyanın ifadəsinə can atır, nəinki təsvirə.



## Vizual təzahür – rəssam

Hegel özünün "Estetika"sında incəsənət formaları və onların təsnifatı ilə bağlı təsəvvür yaratmaq üçün tezis verərkən idealın fərqli növlərinə əsaslanmağı ön plana çəkirdi. Yəni sənin təsvir forman nə qədər təbii və realdırsa, bir o qədər gözəldir. Bu mənada tamaşanın rəssam işi alqışa layiqdir. Quruluşçu rəssam əsər və onun əsas ideyasını duymaqla hadisələr, münasibətlər, insan və hisslər arasında qara tüldən "sədd" çəkir. Bunun sayəsində biz darmadağın olmuş düşüncələrin parçalanmış bədənlərə qəlpə-qəlpə səpələnməsini görürük. Özü də "ştanket"lərdən asılan maneken bədən parçalarında. Görün, nə qədər korrekt və təbiidir.

Tamaşanın işıq həlli də yaxşıdan yuxarıda idi. Videotəsvirlərdə də, sözsüz ki, maksimal dərəcədə qüsurdan qaçılmışdı. Qısacası, tamaşaya böyük əmək sərf edən texniki heyət – işıq, səs, geyim və videosexləri işlərini, daha doğrusu, quruluşçu rəssamla yaradıcı kontekstdəki dialoqlarını əsl mübadilə üzərində qurmuşdular.

## Musiqili dramaturgiya – bəstəkar

Yuxarıda tamaşa haqqında məlumatda da qeyd etdik: musiqi tərtibatçısı Əmrah Dadaşovdur. Niyə? Çox səmimi, bir az da sadəlövh sualdır. Amma yenə də niyə? Teatrın musiqi hissə müdiri, bəstəkarları, baş dirijoru yoxdur ki, musiqi tərtibatı kimi məsul işi o görür? Sizi and verirəm bütün ali teatr dəyərlərinə, bizi uzaq-yaxın şablon mahnılara, "Ay Nurcanım" ritminə kökləmək hansı estetik tələbin nəticəsi idi?

Tamaşanın musiqilərini dinlədikcə (daha doğrusu, buna məhkum olduqca) akademik teatrın əzəmətli tavan və salonuna göz gəzdirib, orkestr çuxurundakı böyük boşluqda "boğulduqda" necə çətin anlar yaşadığımı təsəvvür belə edə bilməzsiniz...

Buradan çıxış edərək deməliyəm ki, bəli, teatr, onunla məşğul olan və olmaq istəyən hər kəs ilk olaraq öz ruhu, daxili dünyası və bütün bunları xırdaladıqda mənəviyyatı, mahiyyəti, elmi, intellekti, zövqü, dünyagörüşü ilə "görüşür" və o təmasın, mübadilənin təsirini təsvir edir.

İndi kimsə deyə bilər ki, rejissor əsəri istənilən cür baş-ayaq edə bilər. Bu da mümkün. Bilirik ki, müasir rejissurada artıq mətn dekonstruksiya olunur, əlavə sözlər yazılır və s.

Bu da qəbul olunur ki, teatr müəllif sənətidir. Doğrudur, yəni rejissor. Dramaturq isə vəziyyəti təklif edən tərəf (buna təklif olunan vəziyyət deyirik). Bu mənada rejissor əsərdə istənilən forma və üslubda, poetika və cərəyanların təsirində yozumla gəzişə bilər. Yetər ki zövqlü, ifadəli, təsirli olsun. Ən əsası da, nə etmək istədiyi ilə nə etdiyi arasında üzvi rabitə qura bilsin.

Ümumən bütün teatr nəzəriyyələri və poetikalarında rejissor ideyası əsas meyar kimi önə çəkilir. Əgər bir tamaşada, bir səhnə aktında, ideya – bu, bəsit də ola bilər, düşündürücü də, dayaz da – yoxdursa və ya müəllifin ideyası rejissorun traktovkasında əriyib oyunla oyunçu, oynayanla oyuna qoşulanlar (tamaşaçılar) arasında təmas yaratmırsa, deməli, iş, əməl, proses yoxdur. Burada əsas məsələ dramaturji işə münasibət ilə başlayır. Yəni müəllif mətni ikinci müəllif – rejissor quruluşunda özünün mahiyyətini ifadə edə bilmirsə, o zaman aktyor oyunundan səhnə tərtibatına hər məsələdə bir pərakəndəlik, düşünülmüş parçalanma olacaq. Niyə düşünülmüş? Çünki istənilən rejissor tamaşanın realizə prosesində qarşısına məqsəd qoyur və onu icra edir. Belə olduqda çox vaxt "necə" və "niyə" sualları onu maraqlandırmır.

## Yorulmadınızsa – sonda bir-iki kəlmə...

Səhnədə qulaqlarımı cırmaqlayan küçə danışıq və intonasiya üslubunu unutmaq üçün yaddaşımı itiləyib məşhur "Ac həriflər"in "Uşağın qulağı ağrıyır, gedim başını qırxdırım, bəlkə ağrısı keçə" fikrini dönə-dönə təkrarladım, güldüm və yenə o tamaşadan "Amma atamın goru üçün damar idi" fikrində duruxdum.

Vallah, düz deyir, damar idi. Amma siz yağlı tikə deyib öyə də bilərsiniz...

**Həmidə Nizamiqızı**

## Xatirə təqvimi 14–16 fevral

### Azərbaycan

**14 fevral 1918** – Memarlıq doktoru, Dövlət mükafatı laureatı Davud Ağa oğlu Axundov (1918 – 19.11.2003) anadan olub. Qafqaz Albaniyası dövründə Azərbaycan memarlığının tarixinə dair əsərlərin müəllifidir.

**14 fevral 1925** – Xalq artisti, dirijor, Dövlət mükafatı laureatı Nazim Əsədulla oğlu Rzayev (1925 – 2.5.2006) anadan olub. Azərbaycan Dövlət Kamera Orkestrinin bədii rəhbəri olub, Türkiyədə çalışıb.

**14 fevral 1939** – Əməkdar artist, tanınmış xanəndə Süleyman Cümşüd oğlu Abdullayev (1939 – 23.10.2022) Füzuli rayonunun Qoçəhmədli kəndində anadan olub.

**14 fevral 1940** – Azərbaycan Televiziyasının ilk diktorlarından Tamara Cəfər qızı Gözəlova-Ağamirova (1940 – 8.5.2020) Bakıda anadan olub. "O olmasın, bu olsun" filmində (1956) Gülnaz roluna çəkilib. Milli Kitabxanada çalışıb.

**14 fevral 1945** – Yazıçı-publisist, şair İntiqam Alı oğlu Mehdizadə (1945 – 8.6.2022) İsmayıllı şəhərində doğulub. Azərbaycan Radiosunda "Bulaq", "Dan yeri" və s. verilişlərin redaktoru olub.

**14 fevral 1980** – Görkəmli aktyor, rejissor, Xalq artisti Rza Təhmasib (20.4.1894 – 1980) vəfat edib. "Bakıda küləklər əsir", "Qanun naminə" və s. filmlərdə çəkilib, "Onu bağışlamaq olarmı?" filminin rejissorudur. Azərbaycan Teatr Cəmiyyətinin sədri olub.

**14 fevral 2013** – Prezident İlham Əliyev görkəmli ədəbiyyatşünas, maarifpərvər, yazıçı-publisist Firidun bəy Köçərlinin 150 illik yubileyi haqqında sərəncam imzalayıb.

**14 fevral 2020** – Prezident İlham Əliyev görkəmli yazıçı, maarifçi və dövlət xadimi Nəriman Nərimanovun 150 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.

**15 fevral 1909** – Əməkdar incəsənət xadimi, aktrisa Xədicə Bahəddin qızı Qazıyeva (1909 – 8.7.1991) Kazan şəhərində doğulub. 1926-cı ildə Azərbaycana gəlib, Naxçıvan Dövlət Musiqili Dram Teatrında çalışıb.

**15 fevral 1914** – Xalq artisti, aktyor Muxtar Həsən oğlu Avşarov (1914 – 6.12.2004) anadan olub. Gəncə Dram, Akademik Milli Dram, Bakı Bələdiyyə teatrlarında çalışıb. "Dəli Kür", "Qaçaq Nəbi", "Kişi sözü" və s. filmlərdə çəkilib.

**15 fevral 1922** – Əməkdar mədəniyyət işçisi Mirəziz Ziyad oğlu Rəfiyev (1922–2007) anadan olub. Yardımlı Tarix-Diyarşünaslıq Muzeyinin direktoru işləyib.

**15 fevral 1923** – Sənətşünaslıq namizədi, professor Xanlar Həmid oğlu Məlikov (1923–1999) anadan olub.

**15 fevral 1933** – Əməkdar artist Bürcəli Veysəl oğlu Əsgərov (1933 – 1.11.2005) Borçalı bölgəsinin Qasımlı kəndində doğulub. Milli Dram Teatrında çalışıb. Filmlərdə ("Onu bağışlamaq olarmı?", "Qırmızı qar"), televiziya tamaşalarında çəkilib.

**15 fevral 1934** – Əməkdar incəsənət xadimi, bəstəkar Adil Musa oğlu Bəbirov (1934 – 26.9.2021) Bakıda anadan olub. Filmlərə, tamaşalara musiqi yazıb, bir sıra mahnıların müəllifidir. Ömrünün son illərini Kanadada yaşayıb, pedaqoji fəaliyyət və yaradıcılıqla məşğul olub, orada vəfat edib.

**15 fevral 1937** – Azərbaycan Bəstəkarlar İttifaqında növbəti hesabat-seçki toplantısı keçirilib. Üzeyir Hacıbəyli təşkilata sədr seçilib. Böyük bəstəkar ömrünün sonunadək (1948) Bəstəkarlar İttifaqına rəhbərlik edib.

**15 fevral 1973** – Əməkdar artist Tünzalə Məcid qızı Əliyeva (1973 – 22.1.2023) Gəncədə anadan olub. Gəncə, İrəvan teatrlarında çalışıb, filmlərdə, teleseriallarda çəkilib.

**15 fevral 2005** – Xalq artisti, teatr və kino aktrisası Xuraman Abdulla qızı Hacıyeva (7.3.1945 – 2005) vəfat edib.

**15 fevral 2008** – Prezident İlham Əliyev "Azərbaycan Xalq Cümhuriyyətinin 90 illik yubileyi haqqında" sərəncam imzalayıb.

**16 fevral 1913 (yeni təqvimlə 1 mart)** – Xalq yazıçısı, ssenarist və dramaturq Ənvər Qafar oğlu Məmmədxanlı (1913 – 19.12.1990) Göyçayda anadan olub. "Şərqin səhəri", "Od içində", "Şirvan gözəli" pyeslərinin, nəsr əsərlərinin müəllifidir. "Fətəli xan", "Leyli və Məcnun ", "Babək" filmlərinin ssenarisini yazıb.

**16 fevral 1916** – Tanınmış sənətşünas, akademik Əbdülvahab Rəhim oğlu Salamzadə (1916 – 19.8.1983) Şamaxıda doğulub. Azərbaycan memarlıq tarixinə dair tədqiqat əsərlərinin, "Abidələr danışır", "Azərbaycan memarlıq abidələri" və s. kitabların müəllifidir.

**16 fevral 1918** – Qəzəlxan şair, tərcüməçi Qəni Hüseynqulu oğlu Hüseynov (Həkim Qəni; 1918 – 10.6.2008) anadan olub. Məhəmməd Füzulinin qəzəllərinin rus dilinə ilk tərcüməçilərindəndir.

**16 fevral 1925** – Görkəmli memar Zivər bəy Əhmədbəyov (1873-1925) vəfat edib. Təzəpir məscidinin layihə müəllifidir. Cümhuriyyət dövründə Bakının baş memarı olub.

**16 fevral 1935** – Xalq rəssamı, heykəltaraş Fazil İmamverdi oğlu Nəcəfov (1935 – 11.7.2023) anadan olub. Görkəmli bəstəkar Qara Qarayevin Bakıda ucaldılan abidəsinin, "İçərişəhər qadınları", "Həyatın mərtəbələri", "Minillik insan" və s. əsərlərin müəllifidir.

**16 fevral 1945** – Opera müğənnisi, aktyor, rejissor, pedaqoq, Xalq artisti Hüseynqulu Məlik oğlu Sarabski (Rzayev; 20.3.1879 - 1945) vəfat edib.

**16 fevral 2012** – Prezident İlham Əliyev böyük şair və dramaturq Hüseyn Cavidin 130 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

### Dünya

**14 fevral 1914** – İtalyan kinorejissoru, ssenarist Pyetro Cermi (Pietro Germi; 1914-1974) anadan olub. "İtalyansayağı boşanma" filminə görə "Oskar" mükafatı (1963) alıb.

**14 fevral 1944** – İngilis rejissoru və ssenaristi Alan Parker (Alan William Parker; 1944 –31.7.2020) anadan olub. "Gecəyarısı ekspessi", "Mələk ürəyi" filmlərini çəkib, Kann kinofestivalının qalibi olub.

**15 fevral 1564** – İtalyan fiziki, astronom, riyaziyyatçı və filosof Qalileo Qaliley (Galileo Galilei; 1564 – 8.1.1642) anadan olub.

**15 fevral 1906** – Tatar şairi, Sovet İttifaqı Qəhrəmanı Musa Cəlil (1906 - 25.8.1944) anadan olub. Böyük Vətən müharibəsində əsir götürülüb, Berlində Moabit həbsxanasında öldürülüb. Əsirlikdə yazdığı "Moabit gündəliyi" şeirlər toplusu ölümündən sonra nəşr olunub.

**15 fevral 1914** – Qazaxıstan milli kinosunun ilk rejissorlarından biri, SSRİ Xalq artisti Şaken Aymanov (1914-1970) anadan olub.

**16 fevral 1845** – Amerika yazıçısı Corc Kennan (George Kennan; 1845-1924) anadan olub.

**16 FEVRAL 1926** – Britaniya kinorejissoru, "Oskar" ("Gecəyarısı kovboy", 1970) mükafatçısı Con Şlezinger (John Richard Schlesinger; 1926–2003) anadan olub.

**Hazırladı: V.Orxan**

# Rəsulzadə yaradıcılığında dil məsələləri – elmi sessiya keçiriləcək

Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri, görkəmli ictimai-siyasi xadim Məhəmməd Əmin Rəsulzadənin (1884–1955) 140 illiyi ilə bağlı müxtəlif tədbirlər keçirilir.

AMEA-nın elmi-tədqiqat institutları da böyük mütəfəkkirin yubileyinə öz töhfələrini verirlər. Fevralın 16-da AMEA – Nəsimi adına Dilçilik İnstitutunda "Məhəmməd Əmin Rəsulzadənin yaradıcılığında dil məsələləri" mövzusunda elmi sessiya təşkil olunacaq.

İnstitutdan bildirilib ki, sessiyada "Məhəmməd Əmin Rəsulzadənin ana dili sevgisi", "Məhəmməd Əmin Rəsulzadə və ədəbi dilimiz", "Məhəmməd Əmin Rəsulzadənin publisistikasının dili və üslubu" mövzularında məruzələr dinləniləcək.

№12 (2077)
14 fevral 2024
www.medeniyyet.az

# Ölkəmiz "2023-cü il üzrə Mədəniyyət destinasiyası" mükafatına layiq görülüb

Çin Xalq Respublikasının "Voyage" jurnalı Azərbaycanı "2023-cü il üzrə Mədəniyyət destinasiyası" mükafatına layiq görüb. Dövlət Turizm Agentliyindən bildirilib ki, mükafatlandırma mərasimində Azərbaycanın mədəniyyətlərarası dialoq məkanı kimi tutduğu mövqe və nüfuzu xüsusi qeyd olunub.

Tədbir zamanı UNESCO-nun Dünya İrs Siyahısında yer alan Şirvanşahlar sarayı və Qız qalası ilə birgə İçərişəhər, Qobustan qayaüstü incəsənəti mədəni landşaftı, Xan sarayı ilə birgə Şəkinin tarixi mərkəzi, "Xınalıq və Köç yolu" mədəni landşaftı kimi tarixi irs əraziləri haqqında geniş məlumat da tədbir iştirakçılarının diqqətinə çatdırılıb.







Sözügedən məkanlar haqqında məlumat Azərbaycan Turizm Bürosunun təşəbbüsü ilə "Voyage" jurnalının "Weibo" sosial platformasındakı səhifəsində dərc olunaraq milyonlarla səyahətçiyə Azərbaycanın tarixi və mədəniyyəti ilə tanış olmaq imkanı yaradıb. Bununla yanaşı, səhifədə "#VoyageAwards" həştaqı ilə həyata keçirilən təbliğat kampaniyası müddətində (11 milyona yaxın baxış) Azərbaycan cəlbedici destinasiya olaraq nümayiş etdirilib.

Xatırladaq ki, Azərbaycan bundan əvvəl "Voyage" jurnalı tərəfindən "Dayanıqlılıq mükafatları 2022 – Mədəni irsin mühafizəsi" nominasiyası üzrə qalib elan olunub.

# Gürcüstan turizmdən rekord gəlir əldə edib



Gürcüstanın 2023-cü ildə beynəlxalq turizmdən əldə etdiyi gəlir rekord həddə – 4,1 milyard dollara çatıb. Bu, 2022-ci ilə nisbətən 17,3% çoxdur.

Gürcüstan Milli Turizm Administrasiyasının məlumatına görə, 2023-cü ildə beynəlxalq turizmdən əldə olunan gəlir pandemiyadan əvvəlki 2019-cu ilin səviyyəsini də 26,2% (856,7 milyon dollar) üstələyib.

Ötən il əcnəbi vətəndaşlar tərəfindən Gürcüstana turizm məqsədi ilə 4 milyon 669 min 467 səfər olub. 2023-cü ildə Gürcüstana ən çox Rusiya vətəndaşları səfər ediblər: 1,4 milyon nəfər. İkinci yerdə Türkiyə vətəndaşlarıdır (1,3 milyon).

Qeyd edək ki, ötən il Azərbaycana turizm məqsədi ilə 1 milyon 402 min nəfər gəlib. Dövlət Statistika Komitəsinin məlumatına görə, əcnəbi turistlər ölkədə ümumilikdə 2 milyard 439 milyon manat pul xərcləyiblər. 1 nəfər turistə düşən orta məbləğ 1 739 manat təşkil edib.

Orta hesabla ən çox pul xərcləyən ölkələr Belarus (3 249 manat), BƏƏ (2 446 manat), Qətər (2 356 manat) olub. Küveytli turistlər isə orta hesabla 2 283 manat, Səudiyyə Ərəbistanından gələnlər isə 2 280 manat xərcləyiblər.

# Bakının kosmosdan fotosu

## Rusiyalı kosmonavt çəkib...

"Roskosmos" kosmonavtlar korpusunun komandiri Oleq Kononenko Beynəlxalq Kosmik Stansiyadan (BKS), Yerdən təxminən 400 km yüksəklikdən Bakının fotolarını çəkib.

Rusiyanın TASS agentliyi tərəfindən yayılan foto-məlumatda kosmonavt məşhur şair, ötən əsrin 20-ci illərində bir neçə dəfə Bakıda olmuş və şeirlər qələmə almış Vladimir Mayakovskidən sitat gətirib: "Bakı. Küləklər şəhəri. Qum gözünüzə tüpürür. Bakı. Odlar şəhəri. Alovlu Balaxanı".

Qeyd edək ki, eyni zamanda TASS agentliyinin xüsusi müxbiri olan Oleq Kononenko daha əvvəl Ankara, Nyu-York və Qahirənin kosmosdan fotoşəkillərini paylaşıb.

Üst-üstə beş missiya ilə (ilk dəfə 2008-ci ilin aprelində) kosmosa uçan Oleq Kononenko həm də orbitdə ən çox qalan kosmonavt kimi dünya rekordçusudur. 5 fevral 2024-cü il tarixində o, BKS-də ümumilikdə 879-cu gününü tamamlamaqla bu rekordun sahibi olub.

Beləliklə, o, daha öncə beş missiya üzrə (1998–2015-ci illərdə) kosmosda 878 gün qalan əvvəlki rekordçu rusiyalı kosmonavt Gennadi Padalkanın nailiyyətini üstələyib.

2023-cü ilin sentyabrından BKS-də olan Kononenkonun bu ilin sentyabrında Yerə qayıtması nəzərdə tutulub. Artıq 5 iyunda isə o, kosmosda 1000 gün keçirən ilk insan kimi tarixə düşə bilər. Yeri gəlmişkən, O.Kononenko iyun ayında həm də kosmosda 60 illik yubileyini qeyd edəcək.



### Türkiyə ikinci astronavtı kosmosa göndərməyi planlayır



Bu arada Türkiyənin ilk astronavt Alper Gezeravcının da daxil olduğu "Ax-3" kosmik heyəti Yerə qayıdıb.

Yanvarın 19-da "SpaceX" şirkətinin "Dragon" kosmik gəmisində ispan, italyan və isveçli astronavtlarla – 4 nəfərlik heyətlə kosmosa uçan "Ax-3" heyəti yanvarın 20-də BKS-dəki 7 nəfərlik qrupa (rus, amerikalı, yapon və danimarkalı astronavtlar) qoşulmuşdu.

Alper Gezeravcının BKS-də 14 gün qalacağı və fevralın 3-də Yerə qayıdacağı nəzərdə tutulsa da, "Dragon"un enəcəyi Kaliforniyadakı hava şərtləri üzündən bir neçə gün ertələndi. Nəhayət, 7 fevralda içində Alper Gezeravcının da olduğu "Dragon" kosmik gəmisi BKS-dən ayrıldı və fevralın 9-da Yerə endi.

Aprel ayında isə Türkiyənin ikinci kosmik missiyasının həyata keçirilməsi planlaşdırılır. Bu barədə məlumatı Türkiyə Kosmik Agentliyinin (TUA) rəhbəri Yusuf Kıraç açıqlayıb.

İkinci kosmik missiyaya astronavt Tuva Cihangir Atasever göndəriləcək. Əslən azərbaycanlı olduğu bildirilən Atasever həmkarı Gezeravcı ilə birlikdə Türkiyənin ilk astronavt namizədləri olublar. Onlar ötən ilin aprelində adları açıqlanandan sonra ABŞ, Yaponiya, Almaniya və Türkiyədə təlim keçmişdilər. Nəticədə missiya üçün ilk astronavt olaraq Gezeravcı seçilmişdi.

# Azərbaycanlı cazmenin Osloda konsertləri

Tanınmış caz musiqiçisi və bəstəkar Rain Sultanov Norveçin paytaxtı Osloda yaşıl dünyaya həsr olunmuş silsilə konsertlərdə iştirak edib.



Rain Sultanov ECM leyblinin (səsyazma markası – ECM Records, Almaniya) tanınmış pianoçusu Tord Qustavsenlə duet şəklində konsert verib. O həmçinin Arild Anderson, Bendik Hofset, Helqe İberq, Helqe Lin, Karl Seqlem kimi Norveçin tanınmış caz-musiqiçilərinin, eləcə də azərbaycanlı həmyerlimiz Tural Rafael və Hikmət Babazadənin yer aldıqları qala-konsertdə çıxış edib.

Layihə təbiətin, nəsli kəsilməkdə olan heyvan növlərinin qorunub saxlanılması, yaşıl dünya naminə musiqiçilərin həmrəyliyini nümayiş etdirmək məqsədilə təşkil olunub. Zal yüksək ifaçıları ayaq üstə alqışlayıb.

Qeyd edək ki, Rain Sultanovun Avropanın nüfuzlu səsyazma studiyalarının birində yazılan "Mavi balina" kompozisiyası tezliklə sənətsevərlərə təqdim olunacaq.

# San-Remo festivalının qalibi Ancelina Manqo olub

Avropanın ən qocaman mahnı yarışması (əsası 1951-ci ildə qoyulub) sayılan və italyan estrada musiqisini dünyaya yayan San-Remo festivalının (6–10 fevral) builki qalibi Ancelina (Angelina) Manqo olub. Nüfuzlu festivala ilk dəfə qatılan 23 yaşlı müğənni beş gün sürən gərgin mübarizədə uğur qazanıb.



Yıxıldı, ağladı, qalib gəldi – festivalı işıqlandıran media qurumları Liquriyanın çiçəkli sahilində keçirilən 74-cü San-Remonun debütantının qələbəsini bu kimi sözlərlə ifadə ediblər.

Ənənəvi olaraq İtaliyanın RAI telekanalı ilə yayımlanan musiqi festivalının beş axşamının sonuncusunda, belə demək mümkünsə, finiş xəttində o, Kampaniya ləhcəsində "I p'me, tu p'te" ("Mən varam, sən varsan") mahnısı ilə Neapoldan olan repçi Jellieri qabaqlayıb. Ancelina Manqo qələbəsini bazar axşamı 34 faiz ilə ümumi reytinqə daxil olan tamaşaçıların səsvermısində də borcludur.

Müğənninin festivalın ilk axşamı "La noia" ("Sıxıntı") mahnısını oxuyub qurtaranda səhnənin pilləkənlərində yıxılması, hətta göz yaşları da ona tamaşaçıların səsvermısində kömək edib. Qələbəsi elan edildikdən sonra isə o, bu dəfə minnətdarlıq hissli göz yaşlarına hakim ola bilməyib.

Qeyd edək ki, son on ildə ilk dəfə bir xanım ifaçı San-Remo festivalının qalibi olub. İtaliyanın ictimai yayım şirkəti RAI may ayında Malmödə (İsveç) keçiriləcək növbəti "Avroviziya" müsabiqəsində ölkəni Ancelina Manqonun təmsil edəcəyini də açıqlayıb.

**V.Kamal**

# Həyatdan könüllü getmək

## Niderlandda qanunla mümkündür

1977–1982-ci illərdə Niderlandın Baş naziri olmuş Dris van Aqt (Dries van Agt) və həyat yoldaşı Evgeniya (Eugenie) evtanaziya yolu ilə həyatlarına son qoyublar.



Bu barədə məlumatda bildirilir ki, hər ikisi 93 yaşında olan cütlük əl-ələ tutaraq birlikdə həyata əlvida deyiblər. Katolik olan, lakin liberal baxışları ilə tanınan Van Aqt və həyat yoldaşı 70 ildir evli idilər.

Hər ikisi xəstə olan cütlüyün ölümlə ayrılmamaq və həyatdan birlikdə getmək üçün evtanaziyaya üstünlük verdikləri bildirilir. Van Aqt 2019-cu ildə beyin qanaması keçirmişdi.

Qeyd edək ki, son vaxtlar Niderlandda birlikdə evtanaziya edən cütlüklərin sayı artıb. 2022-ci ildə 58 cüt birlikdə ölmək üçün bu üsulu seçib. Həmin il ölkədə evtanaziya yolu ilə həyatına son qoyanların ümumi sayı isə 8 min 720 nəfər olub.

Evtanaziya Niderlandda 2002-ci ildən qanunla mümkün elan olunub. Amma bunun üçün müəyyən şərtlər var. İnsan dözülməz ağrılardan əziyyət çəkirsə və sağalma şansı yoxdursa, bu addımı atmasına qanun icazə verir.

## Xronoqraf

### 106 il əvvəl...



**14 fevral 1918-ci ildə** Cənubi Qafqazdan Ümumrusiya parlamentinə – Müəssislər Məclisinə seçilmiş azərbaycanlı, gürcü və erməni deputatlar Tiflisdə toplaşaraq Cənubi Qafqaz (Zaqafqaziya) Seymini yaratmaq qərarına gəliblər. Ümumrusiya Müəssislər Məclisinə seçkilər 1917-ci ilin noyabrında, bolşevik çevrilişindən (7 noyabr) sonra keçirilmişdi. Bolşeviklər bu seçkilərdə faktiki olaraq uduzduqları üçün (o cümlədən Cənubi Qafqazda) Müəssislər Məclisinin fəaliyyətə başlamasına imkan vermədilər. Belə olan halda Cənubi Qafqazdan seçilmiş deputatlar regional parlament (Seym) yaratmaq qərarına gəldilər. Zaqafaziya Seymi 22 aprel 1918-ci ildə Tiflisdə fəaliyyətə başladı və bir aydan bir az artıq (26 mayadək) ömrü oldu.

### 104 il əvvəl...

**12 fevral 1920-ci ildə** Azərbaycan Kommunist (bolşeviklər) Partiyası yaranıb. Partiyanın təsis qurultayında (11-12 fevral) qəbul olunan proqramda Xalq Cümhuriyyəti hökumətini yıxmaq üçün silahlı üsyan xətti irəli sürülüb. Bolşevik Rusiyasının siyasətini həyata keçirən AK(b)P-nin rəhbəri isə Azərbaycan xalqının qatı düşməni, erməni millətçisi Anastas Mikoyan idi.

# Tarixdə bu gün



## Olaylar, faktlar (12 – 15 fevral)

### 79 il əvvəl...



**13 fevral 1945-ci ildə** II Dünya müharibəsində ən böyük bombardmanlardan biri baş verib. ABŞ-Britaniya hərbi aviasiyasının Drezden şəhərini bombalaması nəticəsində 100 mindən çox adam ölüb, 30 mindən çox bina, o cümlədən yüzlərlə tarixi abidə dağıdılıb. Müharibənin taleyinin həll olunduğu bir vaxtda hərbi nöqteyi-nəzərdən strateji əhəmiyyət daşımayan şəhərdə belə bir əməliyyata ehtiyac yox idi. Britaniya bununla 1940-cı ildə almanların Londonu bombalamasının əvəzini çıxırdı.

### 68 il əvvəl...

**14 fevral 1956-cı ildə** Azərbaycan Televiziyası (Bakı Televiziya Studiyası) fəaliyyətə başlayıb. Studiya əvvəlcə həftədə 3 dəfə, 1957-ci ildən isə 5 dəfə 2 saatlıq proqramla efirə çıxırdı. 1962-ci ildə gündəlik efirə çıxan proqramların həcmi 7 saatadək artırıldı. 70-ci illərdə gündəlik verilişlərin yayım həcmi 10, 80-ci illərdə 18 saata çatdırıldı. 2005-ci ildən 24 saatlıq fasiləsiz yayıma keçib.

### 35 il əvvəl...

**15 fevral 1989-cu ildə** Əfqanıstandakı 50 min nəfərlik SSRİ hərbi kontingentinin çıxarılması başa çatıb. Sovet qoşunları Əfqanıstana bu ölkənin kommunist təmayüllü rəhbərliyinin "müraciət"i ilə 1979-cu ildə yeridilmişdi. Bu müddətdə "beynəlmiləl borcunu yerinə yetirən" 15 mindən çox hərbi qulluqçu həlak olmuş, 53 min nəfər yaralanmışdı. 1988-ci ilin 14 aprelində imzalanan "Əfqanıstan Demokratik Respublikasında vəziyyətin siyasi nizamlanması dair" Cenevrə razılaşmalarına uyğun olaraq, həmin ilin 15 mayında sovet qoşunlarının ölkədən çıxarılması başlanmışdı.

### 32 il əvvəl...

**13 fevral 1992-ci ildə** Dağlıq Qarabağ münaqişəsi ilə bağlı regiona ATƏT-in (o vaxt ATƏM adlanırdı) ilk missiyasının səfəri başlayıb. Təşkilata sədrlik edən Çexoslovakiya (1993-cü ildə Çexiya və Slovakiyaya bölündü) Prezidenti Administrasiyasının rəhbəri Karel fon Şvartsenberqin başçılıq etdiyi heyət bir həftə ərzində Bakı, Yerevan və Xankəndidə olmuşdu. Həmin ilin 24 martında ATƏT-in Minsk qrupu yarandı.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev
**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə
**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5096. **Sifariş:** 384
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944
MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641